AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

23 NOYABR 2018-ci il CÜMƏ № 262 (6295) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi





**Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabaddakı Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

**(davamı 2-ci səhifədə)**

## Azərbaycan və Türkmənistan prezidentlərinin təkbətək görüşü olub



*Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.*

*AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.*

**Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV dedi:**

- Hörmətli İlham Heydər oğlu.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş qonşu ölkəyə - qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim. Sizin nümayəndə heyətinin üzvlərinə təşəkkür edirik.

Bildiyiniz kimi, Türkmənistan və Azərbaycan xalqlarının qədim, zəngin mənəvi ənənələri olub. Yəni, biz həmişə, bütün dövrlərdə çox böyük potensiala və imkanlara malik olmuşuq. Sevindirici haldır ki, həm Türkmənistan, həm də Azərbaycan müasir mərhələdə həmin potensialdan istifadə edir. Biz bunu siyasi arenada, iqtisadi məsələlərimizdə, bir sıra başqa sahələrdə görürük. Bu baxımdan bizim güclü ehtiyatımız var. Biz bu ehtiyatdan həm xalqlarımızın rifahı naminə, həm də regional və beynəlxalq səviyyədə istifadə edə bilərik. Ən başlıcası odur ki, biz bütün bunlardan istifadə edirik. Biz Birləşmiş Millətlər Təşkilatı kimi çox nüfuzlu beynəlxalq qurumların üzvləriyik. Vurğulamaq istərdim ki, bu gün Türkmənistan və Azərbaycan BMT-nin Davamlı İnkişaf Məqsədlərini həyata keçirir. Bizdə təkcə regionda deyil, bütün dünyada sabitlik və təhlükəsizlik kimi məsələlərə ortaq münasibət var. Onu demək istərdim ki, biz öz imkanlarımızı nəzərə alaraq regional və beynəlxalq səviyyədə iqtisadiyyat və iqtisadi inteqrasiya sahələrində əməkdaşlıq potensialından istifadə edə bilərik. Buna görə biz əlbəttə ki, Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Artıq qeyd etdiyim kimi, bizim çox yaxşı imkanlarımız var. Bizim köklərimiz, tariximiz, mentalitetimiz, milli xüsusiyyətlərimiz ortaqdır. Biz çox haqlı olaraq vətənpərvərlik göstərir, bu dəyərlərin böyüməkdə olan nəslə ötürülməsi işinə incəsənət xadimlərini, yaradıcı ziyalıları cəlb edirik.

Gördüyünüz kimi, bu gün təkcə Sizinlə bizim aramızda, iki dövlət arasında deyil, həm də region və dünya miqyasında çox iş görülür. Buna görə fürsətdən istifadə edib Sizə təşəkkürümü bildirmək istərdim, ilk növbədə, ona görə ki, Siz Türkmənistan ilə Azərbaycan arasında dostluq tellərinin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar diləyir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm. Bu gün Sizi burada görməyə bir daha şadıq. Xoş gəlmisiniz.

* * *

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Sağ olun, hörmətli cənab Prezident.

Mən, ilk növbədə, qardaş Türkmənistana səfərə dəvətə görə Sizə təşəkkür etmək istərdim. Dünən Sizin torpağa qədəm qoyduğum andan özümü öz evimizdəki kimi hiss edirəm. Bu, qardaş türkmən xalqının qonaqpərvərliyi, şəxsən Sizin qonaqpərvərliyiniz sayəsindədir.

Azərbaycanda Sizi ölkəmizin böyük dostu kimi tanıyırlar. Siz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün çox iş görürsünüz. Fürsətdən istifadə edib Sizi və Türkmənistanın bütün qardaş xalqını inkişafda qazandığınız böyük nailiyyətlərə, Türkmənistanın beynəlxalq aləmdə rolunun möhkəmlənməsinə, milli-mənəvi dəyərlərə çox diqqət yetirməyinizə və xalqınızın ənənələrini qoruyub saxlamağınıza və bunları yeni nəsillərə ötürməyinizə görə təbrik etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim ortaq köklərimiz var və bu, bizi birləşdirir. Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik. Buna görə düşünürəm ki, mənim səfərim bizim qardaşlıq münasibətlərimizin möhkəmlənməsi işinə xidmət edəcək.

Mən Sizinlə razıyam ki, ölkələrimiz regional əməkdaşlıq, regionda təhlükəsizliyin möhkəmlənməsi məsələlərində də mühüm rol oynayır. Sabitliyin, inkişafın yüksək səviyyəsi bizim ölkələri fərqləndirir. Siz çox düzgün qeyd etdiniz ki, ölkələrimiz BMT-nin Davamlı İnkişaf Məqsədləri çərçivəsində dəyişiklikləri fəal həyata keçirirlər. Biz əksər göstəricilər üzrə nəzərdə tutulanları nəinki yerinə yetirmişik, hətta artıqlaması ilə yerinə yetirmişik. Türkmənistana gələn, Sizin ölkənizin necə inkişaf etdiyini, vətəndaşlar üçün necə şərait yaradıldığını, iqtisadiyyatın, sənaye potensialının necə artdığını görən hər kəs bunu yəqin edir.

Azərbaycanda biz Sizin uğurlarınıza sevinirik. Biz əminik ki, qardaş Türkmənistan xalqı Sizin müdrik rəhbərliyinizlə bundan sonra da tərəqqi yolu ilə irəliləyəcək. Əlbəttə, belə yaxşı imkanlardan istifadə etməklə əməkdaşlığı möhkəmlətmək lazımdır. Biz məhz bununla məşğuluq və əminəm ki, səfər bu istiqamətdə çox səmərəli olacaq. İqtisadi sahədə qarşılıqlı fəaliyyət, nəqliyyat sahəsində əməkdaşlıq, sənaye kooperasiyası - müzakirə üçün mövzu çoxdur. Əminəm ki, biz qarşıya qoyulmuş hədəflərə nail olacağıq. Səmimi qəbula və qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm.

**AZƏRTAC**

# Azərbaycan Respublikasının ədliyyə işçilərinə və hakimlərə

Hörmətli ədliyyə işçiləri və hakimlər!

Sizi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi 1918-ci ildə təsis edilmiş Azərbaycan ədliyyəsi bir əsrlik mürəkkəb və şanlı inkişaf yolu keçmişdir.

Azərbaycanda ədliyyə sisteminin intibahı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, bir neçə dəfə ləğv edilmiş Ədliyyə Nazirliyinin fəaliyyəti məhz Ulu Öndər tərəfindən 1970-ci ildə bərpa edilmiş, zəruri normativ sənədlər qəbul olunmuş və milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikası müstəqilliyini qazandıqdan sonra Ümummilli Liderin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, müasir məhkəmə sistemi yaradılmış, məhkəmələrin müstəqilliyinin təmin olunması üçün mühüm addımlar atılmışdır.

Azərbaycanda ədliyyə orqanları və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər bu gün də davam etdirilməkdədir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın təmin edilməsi məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncam imzalanmış, test üsulu ilə şəffaf prosedurlar əsasında yeni hakim korpusu formalaşdırılmış, ədliyyə orqanlarının işi və göstərdiyi hüquqi xidmətlər yeni tələblər səviyyəsində qurulmuşdur. Son illərdə hakimlərin sayı əhəmiyyətli dərəcədə artırılmış, müasir məhkəmə kompleksləri inşa edilmiş, ədliyyə orqanları və məhkəmələrin maddi-texniki bazası gücləndirilmişdir.

Əminəm ki, ədliyyə və məhkəmə işçiləri qanunun aliliyinin, hər kəsin qanun qarşısında bərabərliyinin təmin olunması, vətəndaşların hüquqlarının qorunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirərək Azərbaycan ədliyyəsinin inkişafına öz töhfələrini verəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

**Bakı şəhəri, 21 noyabr 2018-ci il.**

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi







**(əvvəli 1-ci səhifədə)**

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Türkmənistanın dövlət himnləri səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkmənistanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Aşqabadda akkreditə olunmuş səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim edildi.



Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Sonra Azərbaycan və Türkmənistan prezidentləri süvari dəstənin müşayiəti ilə Oğuzxan adına saray kompleksinə gəldilər.

Prezidentlər rəsmi foto çəkdirdilər.

**AZƏRTAC**

## Prezident İlham Əliyevin və Prezident Qurbanqulu Berdiməhəmmədovun geniş tərkibdə görüşü

*Noyabrın 22-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.*

*AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.*



**Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV dedi:**

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edim. Əlbəttə, Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim mehriban qonşuluğumuzun, qarşılıqlı hörmətin, beynəlxalq aləmdə, ticari-iqtisadi əməkdaşlıq məsələlərində və mədəni-humanitar sahədə təsəvvürlərimizin şaxələndirilməsinin məntiqi davamıdır.

Xarici siyasət məsələlərinə gəldikdə, bizim prinsiplərimiz şübhəsiz ki, oxşardır və ya üst-üstə düşür. Yəni, biz həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanmasına tərəfdarıq. Sizə təşəkkür edirik ki, beynəlxalq aləmdə Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüsləri dəstəkləyirsiniz. Əlbəttə, biz bütün məkanlarda, BMT və ATƏT kimi nüfuzlu qurumlarda, beynəlxalq təşkilatlarda bir-birimizi qarşılıqlı surətdə dəstəkləyirik. Mənim fikrimcə, bu da çox düzgündür. Əlbəttə, tərəfdaşlıqda elə məsələlər var ki, biz onlara da münasibət bildirməliyik. Terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, transsərhəd cinayətkarlıq kimi təhdidlər və çağırışlar bu qəbildəndir. Buna görə də biz, əlbəttə ki, belə təhdidlərə qarşı mübarizəni bundan sonra da davam etdirəcəyik.

Demək istərdim ki, Xəzər dənizi də bizi birləşdirir. Bu yaxınlarda Xəzəryanı dövlətlər Xəzərin hüquqi statusu barədə Konvensiyanı qəbul etdilər. Buna görə bizim üçün burada da, o cümlədən mehriban qonşuluq məsələlərində çox böyük imkanlar yaranır. Başlıca məsələ odur ki, biz hamımız eyni fikirdəyik - Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir və biz bundan sonra da fəaliyyətimizi bu ruhda davam etdirəcəyik.

Bizim ticari-iqtisadi məsələlərimizə gəldikdə, iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiya fəaliyyət göstərir və buna görə Sizə təşəkkür edirik. Sevindirici haldır ki, bu ilin 9 ayı ərzində əmtəə dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz artıb. Kənd təsərrüfatı, tikinti, sənaye kimi sahələrdə yaxşı meyillər yaranıb. Azərbaycanın yeni texnologiyaları əlbəttə ki, bizi cəlb edir. Hər halda, bütün dünya rəqəmsal texnologiyalara, rəqəmsal iqtisadiyyata keçir. Buna görə də biz gələcəkdə də bu ruhda davam edəcəyik.

Əlbəttə ki, nəqliyyat məsələlərini, yəni, məhz tranzit nəqliyyat dəhlizlərinin inkişafı və onun logistikasının düzgünlüyünün müəyyənləşdirilməsini qeyd etmək istərdim. Bilirsiniz, Sizinlə bizim - Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropaya çıxışla bağlı nümunəvi təcrübəmiz və imzalanmış razılaşmalarımız çoxdur. Mən xatırlatdım ki, biz bu gün TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı, TİR kimi beynəlxalq qurumlarla yaxşı əlaqələrə malikik və bu, böyük əhəmiyyət kəsb edir. Sizin Bakı-Tbilisi-Qars kimi çox yaxşı infrastrukturunuz var. Görürsünüz, bizdə nümunələr çoxdur. Ona görə də biz düzgün logistikamızı həm avtomobil, dəmir yolu, həm də bərə nəqliyyatı üzrə inkişaf etdirə bilərik. Sizin dəmir yolu üçün güclü bərə nəqliyyatınız var. Bu, bizdə Ro-Ro tipli avtonəqliyyat üçün oxşar variantdır. Düşünürəm ki, biz bu fəaliyyəti düzgün logistikamızla da gücləndirə bilərik. Hərçənd yadımdadır, Siz Xəzəryanı ölkələrin dövlət başçılarının Sammitində də bu variantı təklif etdiniz - Xəzəryanı dövlətlər arasında düzgün logistika yaradılsın və bu müşavirə məhz Bakıda keçirilsin. Fikrimcə, biz bu məsələnin əməkdaşlığa dair ikitərəfli dialoq çərçivəsində müzakirəsinə artıq başlamışıq.

Energetika məsələləri. Bizim çox güclü ehtiyat potensialımız var. Buna görə də biz bu məsələlərdə enerji inteqrasiyasının tərəfdarıyıq. Təkcə bizim ölkələrimiz üçün yox, həm də regional səviyyədə beynəlxalq bazarlara birgə çıxa bilərik. Düşünürəm ki, bu cəhətdən biz yaxşı əməkdaşlıq edə bilərik. Yəni, gördüyünüz kimi, bizdə müxtəlif sahələrin elə mənzərəsi və aspekti var ki, ölkələrimiz arasında əmtəə nomenklaturunu genişləndirə bilərik. Buna görə də mən bir daha qeyd edim ki, burada iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiya bilavasitə rol oynayır. Yəni, biz onun iclasını azı ildə bir dəfə keçirməliyik, çünki bir qədər fasilə yaranıb, amma bəzi məsələlər, necə deyərlər, təcili həllini tələb edir.

Əlbəttə ki, mədəni-humanitar sahə əməkdaşlığın ayrılmaz tərkib hissəsidir. Bizi çox sevindirir ki, ortaq köklərimiz, mənşəyimiz, ənənələrimiz, milli xüsusiyyətlərimiz var. Biz müasir mərhələdə təhsil, elm, turizm sahələrinin, idmanın inkişafı məsələlərinə böyük əhəmiyyət veririk. Bu gün əlbəttə ki, bunlar da lazımdır, çünki onların hamısı böyüməkdə olan gələcək nəsil üçün həm vətənpərvərlik, həm də ideoloji cəhətdən bizim əcdadlarımızın vəsiyyətləridir. Bilirəm ki, Siz xalçaçılıq məsələlərinə böyük diqqət yetirirsiniz. Dediyim kimi, biz də bu sahəyə böyük diqqət yetiririk. Məncə, biz hətta Bakıda olanda təklif etmişdik ki, həm bizdə, həm sizdə xalça sərgiləri təşkil olunsun. Bu halda beynəlxalq səviyyəyə çıxmaq və ya bizim xalçalara aid beynəlxalq konfrans keçirmək olardı. Yəni, gördüyünüz kimi, biz qarşılıqlı hörmət və etimad fonunda bu cür ikitərəfli əməkdaşlığa meyilliyik. Buna görə də mən bir daha Sizə bu səfərinizə görə təşəkkür etmək istərdim. Çünki Sizin səfəriniz şübhəsiz ki, bu gün müzakirə etdiyimiz məsələlərə daha artıq güc, mən deyərdim ki, yaxşı təkan verəcək.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Sizin nümayəndə heyətinizin üzvlərinə əlbəttə ki, qardaş Azərbaycan xalqına ən yaxşı arzularımı bildirirəm. Sizə təşəkkür edirəm.

* * *

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Sağ olun, əziz Qurbanqulu Məlikquliyeviç.

Mən, ilk növbədə, qonaqpərvərliyə, dəvətə, səmimi qəbula görə təşəkkür etmək istərdim. Mən yenidən qardaş Türkmənistan torpağında olmağıma şadam.

Mən dünən ölkənizin nailiyyətləri ilə tanış olmaq imkanı qazandım və bu, Türkmənistanın inamlı müsbət inkişafının nümayişidir. Şəxsən Sizi və bütün Türkmənistan xalqını quruculuq yollarında böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm.

Biz də səfərə böyük əhəmiyyət veririk və səfər çox yaxşı hazırlanıb. Səfərin yekunları üzrə xeyli sənədin imzalanacağı nəzərdə tutulub. Əminəm ki, onlar vaxtında reallaşacaq və bununla da bizim əməkdaşlığımız üçün daha yaxşı şərait yaranacaq.

Biz Türkmənistanla əməkdaşlığa böyük əhəmiyyət veririk. Siz qeyd etdiyiniz kimi, bizim ümumi köklərimiz, tariximiz, xalqlarımızın yaxınlığı elə bir bünövrədir ki, onun üzərində öz birgə gələcəyimizi qururuq. Həm də təsadüfi deyil ki, biz beynəlxalq qurumlarda birgə fəaliyyət göstəririk, bir-birimizi dəstəkləyirik. İkitərəfli planda əməkdaşlıq potensialını gücləndiririk və bütün bunlar sabitliyə doğru aparır, regional təhlükəsizliyi möhkəmləndirir. Bu gün regional təhlükəsizliklə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Biz görürük ki, dünyanın müxtəlif guşələrində toqquşmalar, qanlı hadisələr baş verir, dövlətlərin təməlini sarsıdan proseslər gedir. Buna görə də düşünürəm ki, belə mürəkkəb vəziyyətdə həm Azərbaycanın, həm də Türkmənistanın yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirməsi xüsusilə əhəmiyyətlidir və bunlar bir daha ölkələrimizin getdiyi yolun düzgün olmasından xəbər verir.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın istiqamətləri çoxdur. Əminəm ki, indiyədək olduğu kimi, gələcəkdə də beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu gün biz artıq təkbətək görüşdə əməkdaşlığın xeyli mühüm məsələlərini müzakirə etmişik və nümayəndə heyətləri çərçivəsində də müzakirələri davam etdirəcəyik. Biz gələcək əməkdaşlığın əsas istiqamətlərini, prioritetlərini qeyd etdik. Hesab edirəm ki, əmtəə dövriyyəsinin artırılması məsələsində çox iş görmək olar. Əmtəə dövriyyəsi artsa da, fikrimcə, hələlik ölkələrimizin potensialını tam əks etdirmir. Düşünürəm ki, nümayəndə heyətinin üzvləri Türkmənistan mallarının Azərbaycana, Azərbaycan mallarının isə Türkmənistana ixracını necə artıra biləcəyimizi konkret müzakirə etmək imkanına malik olacaqlar. Əlbəttə ki, bu mövzu hökumətlərarası komissiyanın işi çərçivəsində də prioritet məsələlərdən biri olmalıdır. Razıyam ki, iclaslar arasında müəyyən fasilə olur. Hesab edirəm ki, yaxın vaxtlarda artıq əldə olunan razılaşmaların yerinə yetirilməsi proqramını işləyib hazırlamaq məqsədilə mənim səfərimin yekunlarına əsasən operativ iclas keçirmək mümkün olacaq.

Artıq dediyim kimi, bu gün xeyli sənəd imzalanacaq. Onlar inkişaf istiqamətlərini müəyyənləşdirir, amma həmin məsələlərin reallaşdırılması üzrə fəaliyyət planının olması da zəruridir.

Həm Türkmənistan, həm də Azərbaycan böyük təbii ehtiyatlara malik ölkələrdir. Əlbəttə ki, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq təbiidir. Azərbaycan Türkmənistanın enerji ehtiyatları üçün tranzit imkanlar təqdim edir. Biz şadıq ki, Türkmənistan nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql edilərək əməkdaşlığımızı möhkəmləndirir. Əlbəttə, bizim münasibətlərimizin əsas mövzularından biri nəqliyyat sahəsidir. Təsadüfi deyil ki, mənim nümayəndə heyətimin tərkibində Azərbaycanın bütün nəqliyyat qurumlarının rəhbərləri var. Onlar artıq türkmənistanlı həmkarları ilə fəal işləyirlər. Biz bu gün Sizinlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın bu məsələlərini də müzakirə etmişik. Yəni, biz bu sahədə bütün ölkələrə və xalqlara fayda gətirəcək çoxtərəfli regional əməkdaşlıq üçün çox yaxşı perspektivlər görürük. Belə ki, mən bizim söhbətimizdən çox məmnunam və düşünürəm ki, səfərin nəticələri də çox müsbət olacaq, ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcək.

Qonaqpərvərliyə görə bir daha sağ olun, Sizə möhkəm cansağlığı, gələcək uğurlar, qardaş Türkmənistan xalqına sülh və tərəqqi arzulayıram. Sağ olun.

**AZƏRTAC**



## Azərbaycan-Türkmənistan sənədləri imzalanıb

**Noyabrın 22-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Elmlər Akademiyasının prezidenti Sapardurdı Toylıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramı"nı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın təhsil naziri Mammetmırat Geldiniyazov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Azat Atamıradov imzaladılar.

"Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov və Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyinin sədri Aleksandr Dadayev imzaladılar.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi arasında nəqliyyat və tranzit məsələlərinə dair Saziş"i "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Azat Atamıradov imzaladılar.

"Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında Saziş"i Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və Türkmənistanın Dövlət Gömrük Xidmətinin rəisi Atadurdı Osmanov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Türkmənistan Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutu arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Baba Zaxırov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitet arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitetinin rektoru Esen Aydoqdıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan iki dövlətin (əlavə) ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin sədri Merqen Qurdov imzaladılar.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında dəniz ticarət gəmiçiliyinin inkişafına dair Saziş"i "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında avtomatlaşdırılmış informasiya mübadiləsi haqqında Saziş"i "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında yükaşırma həcmlərinin artırılması haqqında Saziş"i "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

**(davamı 3-cü səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri

## Azərbaycan və Türkmənistan prezidentləri mətbuata birgə bəyanatla çıxış ediblər







*Noyabrın 22-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata birgə bəyanatla çıxış ediblər.*

*AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, əvvəlcə Türkmənistan Prezidenti bəyanatla çıxış etdi.*

### Prezident Qurbanqulu Berdiməhəmmədovun bəyanatı

-Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Mən, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə və onun nümayəndə heyətinin üzvlərinə dərin təşəkkürümü bildirmək istərdim ki, dəvətimizi qəbul edib mehriban qonşunuz, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəlimisiniz. Buna görə biz sizə bir daha minnətdarıq.

Demək istərdim ki, biz bu gün çox yaxşı, konstruktiv danışıqlar apardıq. Prinsipcə, bizim ikitərəfli münasibətlərimizin bütün aspektlərini, yəni, onların cari və perspektiv vəziyyətini, regional və beynəlxalq siyasətə dair məsələləri nəzərdən keçirdik. Mən dərhal demək istəyirəm ki, bizim - həm Türkmənistanın, həm də Azərbaycanın beynəlxalq məsələlər barədə baxışları eynidir, yaxud bənzərdir. Bunlar həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması məsələləridir. Buna görə də bu gün biz beynəlxalq aləmdə xarici siyasi kursumuzdan, yəni, Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüslərini daim dəstəklədiklərinə görə Azərbaycana minnətdar olmalıyıq. Eyni zamanda, biz də qardaş Azərbaycanı daim dəstəkləyirik.

Onu da demək istərdim ki, bu gün biz həm də bizi birləşdirən ümumi məsələlərimiz üzrə fikir mübadiləsi apardıq. Bu, Xəzər dənizi məsələsidir. Bildiyiniz kimi, bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya qəbul olunub. Biz həmişə bildiririk ki, Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. Buna görə də biz gələcəkdə də, əlbəttə, öz siyasətimizi aparacağıq.

Bu gün biz ticari-iqtisadi məsələlərdən danışarkən çox böyük aspekti, yəni, yaxşı təmasa malik olduğumuz sahələri - kənd təsərrüfatını, tikintini, sənayeni, yeni texnologiyaları nəzərdən keçirdik. Nəqliyyat məsələlərinə, məhz nəqliyyat-tranzit dəhlizlərinin və düzgün logistikanın tərtib olunmasına toxunduq. Əlbəttə, əsas məsələlər energetika məsələləri idi. Yəni, bu məsələdə biz həmişə həmrəyik. Biz enerji resurslarımızı həm regional, həm də beynəlxalq bazarlara çıxarmaq imkanına malikik. Bu baxımdan mən, əlbəttə, dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyətinə görə minnətdar olmaq istərdim. Həmin komissiya çox iş görür və yəqin ki, gələcəkdə də görəcək.

Mədəni-humanitar sahədən danışarkən, əlbəttə ki, bu, bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki həm Türkmənistan, həm də Azərbaycan, bizim xalqlarımız vahid köklərə, adətlərə, milli xüsusiyyətlərə, ənənələrə malikdir. Əlbəttə, bizim üçün sevindiricidir ki, biz müasir mərhələdə də gələcək gənc nəslin vətənpərvər ruhda böyüməsi naminə bu işi davam etdiririk. Buna görə də biz bu sahə haqqında bu kontekstdə danışarkən, bu gün bizim üçün mühüm olan tətbiqi sənət, yəni, xalçaçılığa toxunduq. Həm Türkmənistan, həm də Azərbaycan xalçaları bütün dünyada məşhurdur. Biz bu fikrə gəldik ki, həm Türkmənistanda, həm də Azərbaycanda xalça sərgisi təşkil etmək, həmçinin gələcəkdə beynəlxalq konfransın keçirilməsi haqqında düşünmək yaxşı olardı.

Gördüyünüz kimi, biz bugünkü görüşdə çox geniş əhatəli məsələləri nəzərdən keçirdik, xeyli sənəd və saziş imzaladıq.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, buna görə də mən sizin diqqətinizi iki məsələyə yönəltmək istərdim. Birincisi, nəqliyyat məsələləridir. Biz dedik ki, tranzit dəhlizləri inkişaf etdirmək, düzgün logistika tərtib etmək istərdik. Bu, avtomobil və bərə nəqliyyatına, hava məkanına, dəmir yollarına aiddir. Ən başlıcası odur ki, indi bizim aramızda məhz nəqliyyat-tranzit dəhlizləri və logistikanın inkişafı məsələləri ilə məşğul olacaq xüsusi komissiya fəaliyyət göstərəcək.

Türkmənistanla Azərbaycan arasında xeyli nümunəvi cəhətlər var. Biz Əfqanıstan, Türkmənistan, Azərbaycan və Türkiyə arasında Avropaya çıxışla bağlı nəqliyyat sazişi imzaladıq. Bu, artıq Şərq-Qərb xəttinə aiddir, ya da biz burada bütün Orta Asiyanı Avropa ilə birləşdiririk. Biz istər beynəlxalq siyasətə, istərsə də başqa istiqamətlərə aid bütün məsələlərdə ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqəli addımlar atırıq. İndiki halda biz Bakı-Tbilisi-Qars kimi yaxşı infrastrukturun olduğu TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı xətti ilə gedə bilərik. Belə nümunələr çoxdur. Bunun əsasında noyabrın 28-də böyük beynəlxalq konfrans keçirəcəyik. Düşünürəm ki, bu gün biz həmin iştirakçı ölkələrin üzvlərinə müəyyən güzəştlər edə bilərdik. Deyək ki, güzəştli tariflər və sair. Burada əsas məsələ düzgün logistikanı inkişaf etdirməkdən ibarətdir.

Demək istədiyim ikinci məsələ odur ki, biz bu gün sənədlər paketi ilə yanaşı, 2019-2021-ci illər üçün ticari-iqtisadi sahənin inkişafı haqqında da əməkdaşlıq proqramı qəbul etdik. Yəni, bu, bir daha ondan xəbər verir ki, biz gələcəkdə də əmtəə nomenklaturamızı inkişaf etdirə bilərik. Hərçənd indi bizdə çox yaxşı tendensiya gedir, yəni, biz artıq öz statistikamızı bildirdik. Qeyd etdik ki, hər il müəyyən faiz artım var, deyək ki, əvvəlki illə müqayisədə 17 faiz artım olub. Biz elə bu ruhda iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyamıza üstünlük veririk. Buna görə də mən xüsusi qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən yüksək hörmət və qarşılıqlı etimad fonunda keçib. Ən əsası gələcək əməkdaşlığa doğru yaxşı meyil var. Buna görə də mən fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının hörmətli Prezidentinə onun şəxsi töhfəsinə, bizim xalqlarımız və ölkələrimiz arasında dostluq tellərinin möhkəmlənməsi üçün etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əlbəttə, ali dövləti fəaliyyətində böyük uğurlar, bütün qardaş Azərbaycan xalqına isə ən yaxşı rifah və tərəqqi arzulayıram. Diqqətə görə təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

-Hörmətli cənab Prezident.

Hörmətli dostlar.

Mən Türkmənistan Prezidentinə, mənim əziz dostuma dəvətə, çox səmimi qəbula, qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Mən dünəndən qardaş Türkmənistan torpağındayam. Türkmənistanın sosial-iqtisadi inkişafındakı nailiyyətlərlə tanış olmaq imkanına malik oldum. Biz sizin uğurlarınıza da öz nailiyyətlərimiz kimi sevinirik. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqı adından qardaş türkmən xalqına salamlarımı çatdırmaq istəyirəm. Bizi tarix, mədəniyyət, ümumi köklər, ənənələr, dünyagörüşü birləşdirir. Bu, həmin güclü bünövrədir ki, bizə öz münasibətlərimizi bərabər hüquqlar, mehriban qonşuluq, dostluq və qardaşlıq əsasında qurmağa imkan verir.

Səfər sona yaxınlaşır. Artıq bu gün demək olar ki, bu səfər bizim ölkələrimiz arasında münasibətlər tarixində xüsusi yer tutacaq. Bu münasibətlərin çox böyük potensialı var. Bu gün aparılan danışıqlarda, prezidentlər arasında təkbətək formatda, eləcə də nümayəndə heyətlərinin iştirakı ilə aparılan fikir mübadiləsi zamanı biz əməkdaşlığımızın mühüm məsələlərini müzakirə etdik. Biz görülən işlərə yekun vurduq və gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Bu gün 20-dən çox sənəd imzalanıb və onların hər birinin olduqca konkret xarakteri var. Bu, bizim münasibətlərimizin, əməkdaşlıq həcminin və nailiyyətlərimizin, bir-birimizə qardaşlıq münasibətinin göstəricisidir. Yalnız yaxın ölkə ilə həyat fəaliyyətinin bu cür müxtəlif istiqamətləri üzrə işləmək mümkündür.

Biz gələcəkdə də bir-birimizə beynəlxalq qurumlarda, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərməyə razılaşdıq. Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu, artıq adi hala çevrilib. Amma bu, bizim münasibətlərimizin səmimiliyini göstərir.

Türkmənistan Prezidenti artıq gündəlikdə olan əsas məsələlər barədə danışdı. Öz tərəfimdən qeyd etmək istərdim ki, biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması üzərində fəal işləyəcəyik. Biz ölkələrimiz arasında fəaliyyət göstərən hökumətlərarası komissiyaya müvafiq tapşırıqlar vermişik ki, onlar Azərbaycandan Türkmənistana və Türkmənistandan Azərbaycana ixracı artırmaq üzrə işi fəallaşdırsınlar. Malların konkret siyahısı var və qurumların müvafiq rəhbərləri bu məsələləri müzakirə edirlər. Fikrimcə, əgər biz konkret istiqamətlərə diqqəti yönəltsək, qısa müddət ərzində əmtəə dövriyyəmizi daha da artıra bilərik.

Türkmənistan Prezidenti hörmətli Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovun dediyi kimi, nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə böyük yer ayrılıb. Səfər ərəfəsində bizim nümayəndə heyətlərimiz fəal işləyiblər, bir neçə raund danışıqlar aparıblar və Şərq-Qərb beynəlxalq dəhlizinin fəaliyyətinin əsas məsələlərini razılaşdırıblar. Türkmənistan və Azərbaycan öz tərəflərindən əvvəlki illərdə müasir nəqliyyat infrastrukturunun yaradılması və logistika imkanları üçün böyük iş aparıblar. Biz əvvəlcədən razılaşmamışdıq, amma belə alındı ki, paralel yollarla getdik. Bu da təbiidir, çünki bu, ölkələrimiz və xalqlarımız üçün zəruri olan məsələdir. Təsadüfi deyil ki, həm Türkmənistanda, həm də Azərbaycanda bu il beynəlxalq ticarət limanlarının açılması eyni vaxtda, eyni ayda - may ayında baş verib. Hərə öz ərazisində bu layihələrə sərmayə qoymağa başlayanda biz uzaqgörənliklə hərəkət etdik. Bu gün biz ticarət limanlarımızın tam inteqrasiyası haqqında danışırıq, müvafiq sənəd bu gün imzalanıb. Bu, bizim ölkələrimiz üçün əmtəə dövriyyəsini və tranzit daşımaları artırmaq imkanları yaradır. Biz qonşularımız üçün də böyük potensial yaradırıq. Bizim mühüm nəqliyyat qovşaqları kimi gələcək uğurlu inkişafımız regional vəziyyətdən də asılıdır. Buna görə də bizim qonşularımızla yaxşı münasibətlərimiz regionda təhlükəsizliyi, sabitliyi möhkəmləndirir, eləcə də Azərbaycanla Türkmənistanı mühüm nəqliyyat qovşaqlarına çevirir.

Müasir infrastruktur, nəqliyyat sahəsinə böyük sərmayələr işləmək üçün gözəl şərait yaradır. Rəqəmləri göstərmək istəmirəm, amma əminəm ki, yaxın vaxtlarda biz Türkmənistanla Azərbaycan arasında yük axınının xeyli artımını görəcəyik. Bakının Beynəlxalq Ələt Ticarət Limanında Türkmənistandan əlavə yüklərin qəbulu üçün xüsusi yer ayrılır və biz sözsüz ki, Şərq-Qərb, Qərb-Şərq marşrutları üzrə ölkələrimiz arasında tranzit yüklərin həcminin artdığını görəcəyik.

Ötən il o vaxta qədər mövcud olmayan və dünya bazarlarına çıxış əldə etmək üçün son əlaqələndirici bənd olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bu, dünya bazarlarına çıxmaq üçün daha bir əlavə marşrutdur. Əminəm ki, bu marşrut ölkələrimizə böyük mənfəət gətirəcək, bütün nəqliyyat razılaşmaları paketi regionda təhlükəsizliyi möhkəmləndirəcək. Çünki nəqliyyat sahəsi yeni iş yerlərinin yaradılmasına, iqtisadi fəallığa, Böyük İpək Yolu üzərində yerləşən ölkələrin həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaq. Bununla da sabitlik və təhlükəsizlik möhkəmlənəcək.

Biz bu gün ikitərəfli münasibətlərin ən mühüm konkret məsələlərini, regional əməkdaşlıq üçün yeni şərait yaradan məsələləri həll etdik. Buna görə də hesab edirəm ki, səfər bizim gələcək qarşılıqlı fəaliyyətimiz, Türkmənistanla Azərbaycan arasında ənənəvi qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edəcək, regionumuzun ölkələri arasında yeni daha yaxşı şərait yaradacaq.

Fürsətdən istifadə edərək, qardaş Türkmənistan xalqına sülh, tərəqqi və prezident Qurbanqulu Məlikquliyeviçin rəhbərliyi ilə daha böyük inkişaf diləyir, ona yeni uğurlar, rifah, cansağlığı arzulayıram. Diqqətinizə görə sağ olun.

**AZƏRTAC**

## Ali qonağın şərəfinə





*Noyabrın 22-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.*

*AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlət başçıları ziyafətdə çıxış etdilər.*

**Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV dedi:**

-Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar, qonaqlar, hörmətli səfirlər.

Mən möhtərəm İlham Heydər oğluna və onun nümayəndə heyətinin üzvlərinə bir daha səmimi minnətdarlığımı və təşəkkürümü bildirmək istərdim. Onlar bizim dəvətimizi qəbul edərək öz qonşularının, qardaşlarının ölkəsinə rəsmi səfərə gəliblər və biz bu gün onları qonaqpərvər Türkmənistanda görməyə şadıq.

Demək istəyirəm ki, bu gün biz həqiqi qardaşlar kimi qarşılıqlı hörmət şəraitində çox yaxşı danışıqlar apardıq, ikitərəfli əməkdaşlığımızın, regional və beynəlxalq xarakterli məsələlərin çox böyük aspektini müzakirə etdik. Biz bütün aspektlərə aid 21 sənəd imzaladıq. Buraya həm humanitar, həm də istehsalat istiqamətləri daxildir. Ən başlıcası, biz, əlbəttə, nəqliyyat məsələlərinə çox böyük diqqət yetirdik.

Ümumiyyətlə, biz İlham Heydər oğlunun təşəbbüsü ilə Xəzərə aid məsələləri nəzərdən keçirdik. Bildiyiniz kimi, biz Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanı artıq qəbul etmişik. Odur ki, biz nəqliyyat-tranzit dəhlizinin düzgün logistikasını tərtib etməliyik. Bundan sonra biz həmin mövzunu lobbiləşdirməyə başladıq və yeri gəlmişkən, yəqin Siz də bilirsiniz ki, bu təşəbbüsə dair Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri qəbul edilib. Hətta nəqliyyat-tranzit dəhlizlərinin inkişafı, düzgün logistika barədə 3 qətnamə qəbul edilib. Noyabrın 28-də məhz nəqliyyat-tranzit dəhlizlərinin inkişafı mövzusunda konfrans keçiriləcək və elə indi bütün hörmətli səfirlərimizi həmin konfransa dəvət edirəm.

Məntiqlə yanaşsaq, coğrafi baxımdan həm Türkmənistan, həm də Azərbaycan bu məsələdə əsas ölkələrdir. Yəqin ki, Böyük İpək Yolunu xatırlamağa və onun haqqında danışmağa ehtiyac yoxdur, çünki bu il Türkmənistanda "Böyük İpək Yolu İli" elan edilib. Ümumiyyətlə, bugünkü görüşdə biz bunu qeyd etməkdən başladıq ki, Türkmənistan və Azərbaycan xalqları tarixən həmişə zəngin millətlər olub. Onların həmişə güclü ehtiyat potensialı olub və bu potensialdan həm öz xalqlarının, həm də qonşularının, regionun rifahı naminə istifadə ediblər. Sevindirici haldır ki, bu gün biz bunu müasir mərhələdə davam etdiririk.

Bir daha qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən qarşılıqlı hörmət, qarşılıqlı etimad, mehriban qonşuluq ruhunda keçdi, bizim dostluq tellərimizi bir daha nümayiş etdirdi. Səhv etmirəmsə, Azərbaycanın böyük şairi Füzuli deyib ki, düz yol ilə gedən insana dostu həmişə kömək edər. Bu kəlam bir daha sübut edir ki, bu gün biz həqiqətən öz milli ənənələrimiz və xüsusiyyətlərimizlə mənəvi cəhətdən dəyərliyik.

Mən öz qardaşlarıma ən səmimi sözlərimi dedim. Qoy, dostluğumuz əbədi olsun. Sağ olun.

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV dedi:**

-Hörmətli cənab prezident.

Əziz dostlar, xanımlar və cənablar.

Mənim qardaş Türkmənistana rəsmi səfərim sona çatır. Qardaş Türkmənistan torpağına gəldiyim ilk dəqiqələrdən türkmən xalqının səmimiyyətini və qonaqpərvərliyini, əlbəttə ki, ilk növbədə, Türkmənistan Prezidentinin qayğısını hiss etdim.

Dünən mən türkmənlər üçün müqəddəs yerlərdə oldum. Bu xalqın nə qədər istedadlı, onun tarixinin və mədəniyyətinin nə qədər zəngin olduğunu bir daha gördüm. Əsrlər boyu türkmən xalqı öz torpağında yaşayıb, qurub-yaradıb, öz gələcəyini qurub. Biz azərbaycanlılar həmişə sizin yanınızda olmuşuq. Bizim dostluğumuzun, qardaşlığımızın çoxəsrlik tarixi var. Bu, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı dəstək, əməkdaşlıq tarixidir.

Türkmənistan son illərdə çox böyük yol keçib. Dünən müxtəlif obyektlərdə - idman kompleksində, xalça muzeyində olarkən mən Aşqabadı tanımadım. Çünki mənə elə gəlirdi ki, tamamilə başqa şəhərə gəlmişəm. Mənim burada olmadığım qısa müddət ərzində sanki şəhər içində şəhər yaradılıb. Bu, Türkmənistan dövlətinin qüdrətinin, onun iqtisadi potensialının göstəricisidir. Amma bu, ilk növbədə, ölkə rəhbərliyinin öz xalqının qayğısına qalmasını, inkişaf üçün göstərdiyi səyləri nümayiş etdirir. Bu gün Aşqabadda olarkən Türkmənistanın son illərdə necə inkişaf etdiyini görürsən. Bu, bizi sevindirir. Biz dost və qardaş kimi sizin uğurlarınıza sevinirik. Ölkələrimizin daha da yaxınlaşması üçün öz tərəfimizdən səy göstərmişik və göstərəcəyik.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, biz xalqlarımızın ənənəvi qardaşlıq və dostluq tellərinin daha da möhkəmlənməsi üçün çox iş görürük. Bunu bizə tarix, xalqlarımızın tarixi, ümumi etnik kökləri diktə edir. Bugünkü reallıq da bunu diktə edir. Bu gün bizim maraqlarımız üst-üstə düşür. Bu gün biz birgə səylərlə regionumuzda təhlükəsizliyə töhfə veririk. Biz Xəzər dənizi məsələsində fəal qarşılıqlı fəaliyyət göstəririk. Bilirsiniz ki, bu il Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya imzalanıb. Bizim ölkələrimiz bu Konvensiyanın imzalanmasına böyük töhfə verib. Biz Xəzər dənizinin ekoloji təhlükəsizliyi ilə məşğul oluruq. Biz hazırda mühüm və gələcəkdə də mühüm olacaq qitələrarası əhəmiyyətli məsələlər, o cümlədən Şərq-Qərb nəqliyyat dəhlizinin möhkəmləndirilməsi ilə məşğuluq. Bu dəhliz uzun əsrlər mövcud olub. Bu dəhlizlə bizim əcdadlarımıza ünsiyyət qurmağa imkan vermiş karvanlar keçib. Böyük Tarixi İpək Yolu bizim ölkələrimizin ərazisindən keçib və təbii ki, bu gün biz fəal surətdə bu dəhlizin müasir infrastrukturunun yaradılması üçün əlavə səylər göstəririk. Mən artıq qeyd etmişəm ki, biz sanki razılaşmışdıq, amma əslində razılaşmamışdıq. Faktiki olaraq, eyni zamanda, Türkmənistan və Azərbaycan ərazisində möhkəm nəqliyyat potensialı yaratdıq. Bu gün isə imzalanan sənədlərlə biz bu nəqliyyat potensialını birləşdirdik, əlaqələndirdik. İmzalanan 20-dən çox sənədin əksəriyyəti birbaşa və ya dolayısı ilə nəqliyyat təhlükəsizliyi üzrə əməkdaşlıq məsələsinə aiddir.

Biz regionda qarşılıqlı əməkdaşlıqdan, bu dəhlizin fəaliyyətindən ölkələrimizin, xalqlarımızın, qonşularımızın böyük fayda götürəcəyi tamamilə yeni vəziyyət yaradırıq. Bu, həyat arteriyası kimi ölkələrimizi yeni enerji ilə qidalandıracaq, yeni iş yerləri yaradacaq, yeni istehsalat sahələrinin qurulmasına doğru aparacaq, təhlükəsizliyi, əməkdaşlığı möhkəmləndirəcək.

Bu gün mən səfərimin yekunlarını təhlil edərək görürəm ki, səfər dövlətlərarası çərçivədən çıxıb, onun ən azı mühüm regional əhəmiyyəti var. Nəqliyyat və logistika imkanlarımızın genişləndirilməsi nəzərə alınmaqla bu, qlobal Avrasiya əhəmiyyəti kəsb edəcək. Avropa ilə Asiyanın nəqliyyat dəhlizlərinin birləşdirilməsi artıq reallıqdır. Bu reallığı biz yaradırıq. Əgər həm Türkmənistanda, həm də Azərbaycanda quruculuq, inkişaf yolları üzrə addımlar atılmasaydı, onda bu barədə söhbət aparmaq da ümumiyyətlə mümkün olmazdı. Əgər ölkələrimizin iqtisadi potensialına vaxtında yönəldilən sərmayələr olmasaydı, onda bu gün coğrafi vəziyyətimizin böyük əhəmiyyəti olmazdı. Biz öz coğrafiyamızı ölkələrimiz və qonşularımız üçün böyük potensiala çevirmişik. Buna görə düşünürəm ki, bizim razılaşdığımız məsələlərin əhəmiyyəti onilliklər boyu özünü göstərəcək.

Ən başlıcası, biz bu gün münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Hörmətli Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdı. Bu gün biz öz işimizlə münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Dostlar, qardaşlar arasında belə də olmalıdır. Bu gün biz münasibətlərimizi ən yüksək zirvəyə qaldırırıq. Hörmətli dostuma, Türkmənistan Prezidentinə ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsindəki səylərinə görə təşəkkür etmək istəyirəm. Hörmətli Qurbanqulu Məlikquliyeviçə uğurlar, cansağlığı, rifah, qardaş türkmən xalqına xoşbəxtlik və tərəqqi arzulayıram. Sağ olun.

**AZƏRTAC**

## Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatıb.

**AZƏRTAC**



## Azərbaycan-Türkmənistan sənədləri imzalanıb



**(əvvəli 2-ci səhifədə)**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanlarından keçən daşımaların inkişafı haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistanın Avtomobil Nəqliyyatı Nazirliyi arasında beynəlxalq avtomobil daşımalarının inkişafı haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində əməkdaşlıq Proqramı"nı Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın sənaye naziri Xoşgeldi Mergenov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üzrə ticarət-iqtisadi əməkdaşlıq Proqramı"nı Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.



**AZƏRTAC**

# Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib








**Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən ikiqat sevinc hissi ilə təntənəli şəkildə qeyd olunur.**

AZƏRTAC xəbər verir ki, yubiley münasibətilə nazirliyin bütün struktur qurumlarında silsilə tədbirlər, o cümlədən “açıq qapı” günü, “dəyirmi masa”, ictimai təqdimat və digər yığıncaqlar, universitetlərdə və orta məktəblərdə açıq dərslər, mühazirələr, kütləvi idman yarışları (futbol, voleybol, şahmat) və intellektual oyunlar, veloyürüş, könüllü qanvermə və ağacəkmə aksiyaları təşkil olunub, ədliyyə veteranlarına, uşaq evlərinə baş çəkilib, yeni qulluğa qəbul olunan gənclərlə görüşlər keçirilib. Bu ərəfədə Zaqatalada ədliyyə orqanları və rayon məhkəməsi üçün yeni müasir binanın açılışı həyata keçirilib, bəzi struktur qurumlara xidməti istifadə üçün Azərbaycanın milli istehsalı olan yeni avtomobillər təqdim edilib, ədliyyə işçilərinə bayram sovqatları, mükafatlar verilib.

Eyni zamanda, nazirlik tərəfindən Azərbaycan ədliyyəsinin 100 illik tarixinə dair xüsusi kitab, ədliyyənin rəmzləri, nazirliyin müasir fəaliyyəti, o cümlədən məhkəmə-hüquq islahatları, beynəlxalq hüquq əlaqələri barədə müxtəlif dillərdə toplular, broşürlər, bukletlər və digər maarifləndirici vəsaitlər, o cümlədən videoçarxlar, yubileyə həsr olunmuş ayrıca film və xüsusi ekspozisiyalardan ibarət stendlər hazırlanıb. Həmçinin nazirliyin rəhbərliyi, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çoxsaylı çıxışlar edilib.

Bu bayramı ədliyyə işçilərinə bəxş etmiş ümummilli lider Heydər Əliyevə əbədi ehtiramın əlaməti olaraq, nazirliyin rəhbərliyi və kollektivi, hakimlər yubiley ərəfəsində Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər düzülüb.

Sonra ədliyyə işçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarında keçmiş Vətən övladlarının məzarlarını da ziyarət ediblər.

Noyabrın 22-də Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə Bakıda, “Abşeron Marriott” mehmanxanasında “Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu” mövzusunda beynəlxalq konfrans keçirilib.

Yubiley tədbirində iştirak etmək üçün Türkiyənin ədliyyə naziri Abdulhamit Gül nazirliyin rəhbər şəxslərindən və qardaş ölkənin deputatlarından ibarət geniş tərkibli nümayəndə heyəti ilə, Belarusun ədliyyə naziri Oleq Slijevski, Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mixeil Sarjveladze, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Georq Stava ölkəmizə səfərə gəliblər.

Konfransda, həmçinin ölkəmizin aidiyyəti qurumlarından 110-dan çox nümayəndə, o cümlədən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov, deputatlar, Məhkəmə-Hüquq Şurasının üzvləri, hakimlər, Vəkillər Kollegiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin məsul şəxsləri, alimlər, gənclər, vətəndaş cəmiyyətinin nümayəndələri və media təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan nazir Fikrət Məmmədov tədbirdə iştirak edən qonaqları salamlayıb, Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edib. Nazir konfransın hüquqi dövlətdə ədliyyə sisteminin, Azərbaycan ədliyyəsinin formalaşmasına, inkişafına və qarşıda duran yeni çağırışlara həsr olunduğunu bildirib.

Nazir Prezident İlham Əliyevin yubiley münasibətilə ədliyyə işçilərinin və hakimlərin böyük bir qrupunu orden və medallar, fəxri adlar və ali xüsusi rütbələrlə təltif etməsinin, ədliyyə və məhkəmə işçilərinə təbrik məktubunun dərin minnətdarlıq hissi ilə qarşılandığını və dövlətimizin başçısının Azərbaycan ədliyyəsinə qayğısının növbəti təzahürü olduğunu vurğulayıb. Bildirib ki, bu yüksək etimadı doğrultmaq üçün ədliyyə işçiləri bundan sonra daha əzmlə və məsuliyyətlə çalışmağı özlərinin vəzifə borcu sayırlar.

Prezidentin köməkçisi Fuad Ələsgərov dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə ədliyyə və məhkəmə işçilərinə ünvanladığı təbrik məktubunu oxuyub (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Ali Məhkəmənin sədri Ramiz Rzayev konfransda çıxış edərək Azərbaycan ədliyyəsinin və məhkəmə sisteminin qurulması tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə və məhkəmə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Sonra məruzə və çıxışlar dinlənilib. Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov “Azərbaycan ədliyyəsi 100: təkamül və yeni çağırışlar” mövzusunda geniş məruzə ilə çıxış edib.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının zəngin ədliyyə tarixindən bəhs edən nazir ədliyyə işinə hələ qədim dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə xüsusi diqqət yetirildiyini, ədliyyənin şanlı tarixinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başladığını diqqətə çatdırıb.

Bildirib ki, 1918-ci il mayın 28-də Cümhuriyyətin qurulması ilə eyni gündə təsis olunan Ədliyyə Nazirliyi respublikanın mövcud olduğu 23 ay ərzində ölkənin hüquq sisteminin, ədliyyə və məhkəmə fəaliyyətinin bərpası və təkmilləşdirilməsi, dövlət dili olan Azərbaycan dilini bilən şəxslərin işə cəlb olunması, mühüm qanun layihələrinin hazırlanması, penitensiar xidmətin nazirliyin tabeliyinə verilməklə həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması istiqamətində tarixi xidmətlər göstərib.

Sovet hakimiyyətinin ilk illərində ədliyyə orqanlarının iki dəfə ləğv edilərək yenidən yaradılmasını, fasilələrlə fəaliyyət göstərməsini ədliyyə tarixinin keşməkeşli dövrü adlandıran nazir Fikrət Məmmədov Azərbaycan ədliyyəsinin sabit və davam inkişafının yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonrakı dövrə - 1970-ci ilə təsadüf etdiyini vurğulayıb, müstəqillik illərində Ulu Öndərin demokratik hüquqi dövlət quruculuğu, müasir hüquq sistemimizin inkişafı istiqamətində müstəsna xidmətlərini qeyd edib. Bildirib ki, yeni üçpilləli müstəqil məhkəmə hakimiyyətinin bərqərar edilməsi, ədliyyə orqanlarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi Ümummilli Liderin adı ilə bağlıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələnin başlandığını deyən ədliyyə naziri ötən dövrdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, əldə olunan nailiyyətlər və tətbiq edilən yeniliklər barədə ətraflı məlumat verib, nazirliyin ayrı-ayrı istiqamətləri üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri əyani təqdimatla iştirakçıların diqqətinə çatdırıb.

Konfransda Ədliyyə Nazirliyi tərəfindən yubiley münasibətilə hazırlanmış ədliyyənin tarixi və müasir fəaliyyətindən bəhs edən “Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda” xüsusi kitabın Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov tərəfindən ictimai təqdimatı olub.

Əyani təqdimat zamanı məlumat verilib ki, Azərbaycan ədliyyəsinin 100 illik tarixinə qiymətli töhfə olan bu kitabda xalqımızın ədliyyə tarixi ən qədim zamanlardan başlayaraq yaşadığımız günlərədək ətraflı tədqiq edilib. Azərbaycan ədliyyəsinin Xalq Cümhuriyyəti dövrünün ayrıca təqdim olunması, sovet hakimiyyəti dövründə və müstəqillik illərində ulu öndər Heydər Əliyevin Azərbaycan ədliyyəsinin inkişafında misilsiz xidmətlərinin geniş işıqlandırılmasının təqdirəlayiq olduğu vurğulanıb. Həmçinin bildirilib ki, müasir mərhələdə Prezident İlham Əliyevin yürütdüyü ədliyyə və məhkəmə-hüquq islahatlarına dair verilən zəngin material həm azərbaycanlı oxucular üçün, həm də Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması baxımından çox qiymətlidir.

Akademik Y.Mahmudov illüstrasiya materiallarının zəngin olduğu “Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda” kitabının işıq üzü görməsini ədliyyə tariximizin bütöv halda sistemli şəkildə araşdırılması baxımından mühüm hadisə kimi dəyərləndirib, ədliyyə və məhkəmə-hüquq tariximizə sanballı töhfə və oxucular üçün dəyərli vəsait olduğunu vurğulayıb.

Sonra Türkiyənin ədliyyə naziri Abdulhamit Gül “Türkiyənin məhkəmə sistemi müasir inkişaf mərhələsində” mövzusunda çıxış edərək Azərbaycanın ədliyyə sahəsində böyük uğurlar qazandığını bildirərək, bu münasibətlə təbriklərini çatdırıb.

“Türkiyə və Azərbaycan iki dost və qardaş ölkə, bir millət, iki dövlətdir. Xüsusilə Qafqazda davamlı sülh, sabitlik və inkişafın təmin edilməsi üçün ölkələrimiz arasında həmrəylik vacibdir. Türkiyə və Azərbaycan gücünü ortaq tarixdən alan, bir-birinə bağlı olan ölkələrdir. Həm ikitərəfli, həm də regional məsələlərdə əməkdaşlığı və həmrəyliyimizi genişləndirməkdə qətiyyətliyik. Dövlətlərimizin başçıları arasında yaxın münasibətlər, qarşılıqlı səfərlər ölkələrimiz arasında münasibətlərin göstəricisidir”, - deyən ədliyyə naziri Abdulhamit Gül əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını söyləyib, Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

“Belarus Respublikasının ədliyyə sisteminin inkişafı: vəzifələr, nailiyyətlər, tendensiyalar” mövzusunda çıxış edən Belarusun ədliyyə naziri Oleq Slijevski ötən il Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış Sazişin implementasiyası çərçivəsində təcrübə mübadiləsinin uğurla davam etdirildiyini bildirib. O, Belarus ədliyyə sisteminin fəaliyyəti barədə məlumat verərək qeyd edib ki, iki ölkənin ədliyyə orqanları arasında fəaliyyətlər bənzərdir və qarşımızda ümumi hədəflər durur.

CEPEJ-in prezidenti Georq Stava “Azərbaycan və CEPEJ: inkişaf üçün əməkdaşlıq” mövzusunda çıxış edərək ölkəmizlə səmərəli əlaqələri vurğulayıb, son illər Azərbaycanda məhkəmə-hüquq sistemində yüksək uğurlara nail olunduğunu, məhkəmə sistemində İKT-lərin və elektron məhkəmənin tətbiqi, infrastrukturun müasirləşdirilməsi sahəsində Azərbaycanın ön sıralarda olduğunu vurğulayıb. O, həmçinin jurnalistlərə müsahibəsində Azərbaycanda məhkəmə sistemində həyata keçirilən layihələrin digər dövlətlərə örnək kimi təqdim olunduğunu və artıq Avstriyanın Azərbaycanın bu sahədə təcrübəsindən istifadə etdiyini vurğulayıb.



Konfransda Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mixeil Sarjveladzenin “Gürcüstanın ədliyyə sektorunda islahatlar - güclü qanunun aliliyi və demokratiyaya doğru irəliləyiş”, Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin “Hüquq sisteminin inkişafında müasir qanunvericilik bazasının rolu”, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırovun “Ədalət mühakiməsinin həyata keçirilməsi işində vəkilliyin rolu”, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyevin “Ədliyyə və məhkəmə sistemi üçün hüquqşünas kadrların hazırlanması” və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyninin “Ədliyyə fəaliyyətində ictimai iştirakçılıq” mövzularında çıxışları dinlənilib, müzakirələr, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirin yekununda ədliyyə işçiləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb.

Həmin gün Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan qəbul təşkil olunub.

Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayan qəbulda yubiley münasibətilə hazırlanmış və Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolundan bəhs edən xüsusi film nümayiş olunub, mədəni proqram təşkil edilib.

**AZƏRTAC**

---

*Georq Stava:*

## Azərbaycan Avropada məhkəmə sistemi sahəsində ən dinamik inkişaf edən ölkələrdəndir

**Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vəzifələrindən biri Avropada məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsidir. Azərbaycan Avropa dövlətləri arasında bu sahədə ən dinamik inkişaf edən ölkələrdəndir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 22-də Bakıda Azərbaycan ədliyyəsinin 100 illik yubileyinə həsr olunan “Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu” mövzusunda beynəlxalq konfransda iştirak edən CEPEJ-in prezidenti Georq Stava jurnalistlərə müsahibəsində deyib.

G.Stava bildirib ki, bu gün Azərbaycanda sürətli iqtisadi inkişaf müşayiət olunur. Bununla bağlı məhkəmələrdə mülki sahədə işlərin sayı da artır. Bu da Azərbaycan məhkəmə sisteminin daha da müasirləşdirilməsini şərtləndirir. Ölkənizdə bu sahədə böyük layihələr həyata keçirilir. Azərbaycan artıq bir neçə sahədə, xüsusilə müasir məhkəmə infrastrukturunun yaradılması, məhkəmə sistemində qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və məhkəmələrdə elektron əlçatanlığın artırılması sahələrində ön sıralardadır. Eyni zamanda, məhkəmə fəaliyyətinin qiymətləndirilməsi üçün sizin ölkənizdə xüsusi sistem yaradılıb ki, o da məhkəmə sədrlərinin proses barədə təhlillər aparmasına imkan verir. Bütün bu misallar artıq Avropada müsbət təcrübə kimi qiymətləndirilib və digər ölkələrə örnək kimi təbliğ olunur.



**AZƏRTAC**

---

*Şota Rexviaşvili:*

## Azərbaycanlılar Gürcüstan dövlətçiliyinin möhkəmlənməsində mühüm rol oynayırlar

**Gürcüstanda yaşayan azərbaycanlılar dövlətimizin möhkəmlənməsində mühüm rol oynayırlar. Onlar hər zaman dövlətçiliyə sadiqdirlər.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili Marneulidə yerli sakinlərlə keçirdiyi görüşdə deyib.

Qubernator bildirib ki, Kvemo Kartli bölgəsi mədəni, dini və etnik baxımdan çox fərqli və zəngindir. Bu da Gürcüstanı daha da maraqlı və cəlbedici edir. Bölgədə yaşayan azərbaycanlılar Gürcüstanda sülhün və sabitliyin inkişafının tərəfdarıdırlar. Əminəm ki, yerli azərbaycanlılar dövlətin inkişaf etdirilməsi istiqamətində bundan sonra da hökumətin yanında olacaqlar.

**AZƏRTAC**

# Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair iclas keçirilib



**Noyabrın 22-də Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların qış aylarında daha çox nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

Paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı 204 binanın olduğunu qeyd edən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların qış fəslində kommunal problemlərlə üzləşməməsi üçün aidiyyəti qurumların da komitə ilə birgə işləməsinin vacibliyini bildirib. Sədr artıq bir neçə binaya baxış keçirdiklərini və bəzi binalardakı kommunikasiya xətlərinin yenilənməsinə ehtiyac olduğunu bildirib.

Qışa hazırlıqla bağlı tədbirlərin görülməsinin vacibliyini vurğulayan Baş nazirin müavini müvafiq strukturlara həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

**AZƏRTAC**

# Yaponiyanın milli bayramı - İmperatorun ad günü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib





**Noyabrın 22-də Yaponiyanın Azərbaycandakı səfirliyi bu ölkənin milli bayramı - İmperatorun ad günü münasibətilə rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Səfir Teruyuki Katori bildirib ki, Yaponiya İmperatoru yapon xalqının birlik rəmzidir və onun doğum günü milli bayram kimi qeyd olunur. Bu il İmperator Akihitonun 85 yaşı tamam olacaq. Əlahəzrət İmperator hər zaman xalqının rifahı naminə çalışıb. 2019-cu ilin aprelində o, taxt-tacdan imtina edəcək.

Azərbaycan ilə Yaponiya arasında əlaqələrdən danışan səfir ötən dövr ərzində ölkələrimizin münasibətlərinin davamlı şəkildə inkişaf etdiyini söyləyib. O, Yaponiyanın xarici işlər naziri Taro Kanonun Azərbaycana səfərini, səfər çərçivəsində keçirilmiş yüksək səviyyəli görüşlərdə ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə dair aparılan səmərəli müzakirələri xatırladıb. Vurğulayıb ki, Yaponiya hökuməti Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır. Siyasi, iqtisadi, təhsil, mədəniyyət sahələrində, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq daha da dərinləşib.

Azərbaycan hökuməti adından Yaponiya xalqını milli bayram münasibətilə təbrik edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib ki, Azərbaycan hər sahədə Yaponiya ilə əməkdaşlıq imkanlarını öyrənməyə hazırdır. Azərbaycan-Yaponiya əlaqələrində məhsuldarlıq müşahidə edilir, ikitərəfli ticarət dövriyyəsi dinamik şəkildə artır. Ölkələrimiz arasında siyasi etimad mövcuddur. Yaponiya beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına öz töhfəsini verir.

Azərbaycanda həyata keçirdiyi bir çox layihələrə görə Yaponiya hökumətinə minnətdarlıq edən nazir ölkələrimizin müxtəlif sahələrdə fəal əməkdaşlıq etdiyini vurğulayıb. O, əmin olduğunu bildirib ki, ikitərəfli münasibətlər gələcəkdə daha da möhkəmlənəcək. Azərbaycan Yaponiya ilə iqtisadi, kənd təsərrüfatı və ətraf mühitin qorunması sahəsində əməkdaşlıqda maraqlıdır. Bundan başqa, hər iki ölkədə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi xalqlarımızın yaxınlaşmasına xidmət edir.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, diplomatlar, KİV təmsilçiləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**AZƏRTAC**

# Baş prokurorun Tərtər rayonunda vətəndaşlarla görüşünün vaxtı dəyişdirilib

**Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralovun Tərtər, İmişli, Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Laçın və Xocavənd rayonlarının sakinləri ilə noyabrın 23-də nəzərdə tutulmuş qəbulunun vaxtı dəyişdirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbul noyabrın 29-da saat 10:00-da Tərtər Rayon Prokurorluğunun inzibati binasında keçiriləcək.

**AZƏRTAC**

# Tarix İnstitutuna müxtəlif ölkələrdən on minlərlə arxiv sənədləri gətirilib

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun elmi şurasının iclası keçirilib.**



İnstitutdan AZƏRTAC-a bildiriblər ki, iclasda tarixçi alimlərimizin əsərlərinin impakt faktorlu jurnallarda çap edilməsi imkanları ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunub.

Akademik Yaqub Mahmudov qeyd edib ki, institut Türkiyə, Rusiya, Qazaxıstan, Ukrayna, Çin, Bolqarıstan, Albaniya, Polşa və digər ölkələrin elmi qurumları ilə əməkdaşlıq edir. Bildirilib ki, Prezident İlham Əliyev AMEA-nın Tarix İnstitutunu "ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi" adlandırmaqla institut əməkdaşlarının tədqiqatlarına çox yüksək qiymət verib.

Yaqub Mahmudov deyib: "Tarix İnstitutuna Paris, London, Berlin, Dehli, Moskva, Sankt-Peterburq, İstanbul, Ankara və digər yerlərdən on minlərlə arxiv sənədləri gətirilib".

Sonra Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik Fikrət Əliyev "Azərbaycanda elmi jurnalların beynəlxalq bazalara inteqrasiya vəziyyəti haqqında" məruzə ilə çıxış edib. Bildirilib ki, Azərbaycanda nəşr olunan 365 elmi jurnaldan cəmi 18-i beynəlxalq standartlara cavab verir. Alim deyib: "Azərbaycan tarix elmi xalqımızın və dövlətçiliyimizin simasıdır və onu hamımız qorumalıyıq".

Sonra mövzu ətrafında müzakirələr aparılıb. Müzakirələrdə akademik Fikrət Əliyev, "Applied and Computational Mathematics" beynəlxalq jurnalının baş redaktorunun müavini Nərgiz Səfərova və Türk Dünyası Riyaziyyat Cəmiyyətinin "Nəzəri və tətbiqi riyaziyyat" jurnalının aparıcı redaktoru Qəmər Məmmədova iştirak ediblər.

Qeyd edək ki, akademik Fikrət Əliyev 1993-cü ildən Amerika Riyaziyyat Cəmiyyətinin, 1996-cı ildən Ümumdünya Kompüter Assosiasiyasının və 1997-ci ildən isə Nyu-York Elmlər Akademiyasının üzvüdür.

**AZƏRTAC**

# Hüquqi dövlət amalı

***Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci ildən başlayır. Düz 100 il əvvəl, mayın 28-də Azərbaycanda Xalq Cümhuriyyəti elan edildikdən sonra ölkəmizdə ilk təsis edilən dövlət qurumlarından biri də Ədliyyə Nazirliyi olub. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay yaşadı. Onun parlamenti isə cəmi 17 ay fəaliyyət göstərə bildi. Bu müddətdə 145 iclas keçirdi, müzakirəyə 270-dən çox qanun layihəsi çıxarıldı və onlardan 230-a yaxını qəbul edildi. Bu prosesdə Ədliyyə Nazirliyinin rolu çox böyük idi.***

Ədliyyə Nazirliyi 1918-ci ildə ağır şəraitdə fəaliyyətə başlamışdı. Həmin vaxt ölkədə məhkəmə sistemi dağınıq, pərakəndə vəziyyətdə idi. Hüquqşünas kadrlar, xüsusilə müstəntiq və hakimlər çatışmırdı, bəzi yerlərdə isə məhkəmə idarələri öz fəaliyyətini ümumiyyətlə dayandırmışdı. Lakin tezliklə respublikada qayda-qanunun bərpası ilə əlaqədar müvafiq hüquqi aktların qəbul edilməsi üçün tədbirlər görüldü, qısa müddətdə məhkəmə aparatları bərpa edildi. Zəruri hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi məqsədilə kurslar təşkil olundu. Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsi və onun tərkibində prokurorluq fəaliyyətə başladı. Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiqləndi. Bilavasitə Ədliyyə Nazirliyinin təşəbbüsü ilə dövlətin əsaslarının möhkəmləndirilməsinə xidmət edən qanun layihələri hazırlanaraq parlamentin müzakirəsinə çıxarıldı. Nazirliyin parlamentə təqdim etdiyi mühüm qanun layihələrindən biri Cümhuriyyətin yaranmasının il yarımı münasibətilə ümumi amnistiyanın elan edilməsi ilə bağlı idi.

Həmin dövrdə penitensiar xidmətdə də ciddi islahatlar aparıldı. Həbsxana işinin ədalət mühakiməsinin həyata keçirilməsində müstəsna əhəmiyyəti nəzərə alınaraq cümhuriyyət hökumətinin 1919-cu il 11 avqust tarixli qərarı ilə penitensiar müəssisələr Ədliyyə Nazirliyinin tabeliyinə verildi və bu sahədə iş təkmilləşdirildi. 1920-ci ildə Azərbaycan sovetlər tərəfindən işğal edildikdən sonra dövlətçiliyin əsas sütunlarından olan ədliyyə sistemində bolşevik prinsiplərinə uyğun dəyişikliklər aparıldı, nazirlik dəfələrlə ləğv edilib yenidən yaradıldı, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq və məhkəmə orqanlarına verildi. O illərdə ədliyyə sisteminin sabit funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törədirdi.

Azərbaycanda Ədliyyə Nazirliyinin dövlət strukturu kimi yenidən və əsaslı surətdə təsis olunması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Azərbaycanda Ədliyyə Nazirliyi 1970-ci ildə bərpa edilməklə ədliyyə fəaliyyəti təkmilləşdirildi və onun gələcək inkişafı üçün şərait yaradıldı. Bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başladı. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirdi, əhaliyə hüquqi yardımı yaxşılaşdırdı, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etdi və ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yarandı.

Ədliyyənin inkişafına xüsusi diqqət ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra da davam edib, hüquq sistemində inqilabi demokratik dəyişikliklərə səbəb olan məhkəmə-hüquq islahatı çərçivəsində Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişləndirilib. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafına daim qayğı göstərilib, cəmiyyətdəki rolu və əhəmiyyəti artıb, ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılıb, yeni qurumlar yaradılıb, onların işinin təşkili üzrə zəruri tədbirlər görülüb. Ənənəvi fəaliyyət istiqamətləri ilə yanaşı, Ədliyyə Nazirliyində icra xidməti, istintaq aparatı, bələdiyyələrlə iş və məhkəmə ekspertizası mərkəzləri yaradılıb, bir çox digər hüquqi məsələlərin həlli nazirliyə həvalə edilib. Qanunun aliliyinin daha yüksək səviyyədə təmin edilməsi məqsədilə 2000-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlayıb, ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlarla yeni hakim korpusu formalaşdırılaraq onların yüksək statusu müəyyən olunub.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədilə ulu öndər Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün — 22 Noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən olunmuşdur. Azərbaycan ədliyyə işçilərinin peşə bayramını təsis etməklə ümummilli lider ədliyyə tarixinə özünün daha bir şərəfli imzasını atmışdır. Bu yüksək etimad və diqqət hər bir ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanmışdır.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə və uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti daha da qüdrətlənir, möhkəmlənir, ölkədə müasir hüquq və idarəetmə sistemləri formalaşaraq hüquq münasibətləri modernləşdirilir. Təbii ki, hüquqi dövlətin uğurlu inkişafı möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Bu baxımdan fəxrlə qeyd edə bilərik ki, Prezident İlham Əliyev tərəfindən ötən illərdə ədliyyə sisteminin müasirləşdirilməsi və müstəqil məhkəmə hakimiyyətinin daha da gücləndirilməsi üzrə çox mühüm həm nəzəri, həm də praktiki əhəmiyyət daşıyan qərarlar təsdiqlənib.

Çoxşaxəli ədliyyə fəaliyyətinin tənzimlənməsi üçün 2006-cı ildə Ədliyyə Nazirliyinin Əsasnaməsi, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanun qəbul olunub, "Ədliyyə orqanlarının inkişafı haqqında" fərman imzalanıb. Bununla da Ədliyyə Nazirliyinə hüquq-mühafizə orqanı statusu verilib, yeni vəzifələr həvalə edilməklə onun strukturu təkmilləşdirilib. 2009-cu ildə isə dövlət başçısı tərəfindən "Azərbaycan Ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı"nın icra olunması ədliyyə və məhkəmə sahəsində islahatların gələcək inkişaf perspektivlərini müəyyən edib.

Ədliyyə Nazirliyi qanunvericilik sahəsində fəal iştirak edir, hüquqi aktların layihələri insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutularaq onların beynəlxalq hüquqi sənədlərə uyğunluğuna xüsusi diqqət yetirilməklə hazırlayır, rəy verir, normativ-hüquqi və normativ xarakterli aktların hüquqi ekspertizasını aparır. "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanunu ilə nazirliyə yeni mühüm vəzifələr, o cümlədən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin yaradılması və onun aparılması həvalə edilib.

Ədliyyə Nazirliyi əhalinin vətəndaş hüquqları barədə məlumatlandırılması və onların pulsuz hüquqi yardım xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi məqsədilə bölgələrdə hüquqi məsləhət xidməti mərkəzlərinin yaradılmasını təmin edib. Mərkəzlərin zəruri biliyə malik hüquqşünas kadrlarla komplektləşdirilməsi, həmçinin lazımi avadanlıq və qanunvericilik aktları ilə təchiz olunması istiqamətində tədbirlər həyata keçirilib.

Penitensiar və icra xidmətlərində islahatlar davam etdirilərək işin səmərəli təşkili üçün mövcud olan problemlərin aradan qaldırılması, kadrların məsuliyyət hissinin artırılması üzrə ciddi tədbirlər həyata keçirilib, bu sahədə müvafiq qanunvericilik bazası təkmilləşdirilib. Məhkəmə ekspertizası mərkəzi müasir kriminalistik avadanlıqlarla təchiz olunub, tədqiqat laboratoriyaları yeniləşdirilib. Qanunvericiliyə edilən dəyişikliklərə əsasən Ədliyyə Nazirliyi tərəfindən ibtidai istintaqı aparılan cinayət işlərinin dairəsi genişləndirilib, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət gücləndirilib, ədliyyə orqanlarında keyfiyyətli tibbi xidmətin göstərilməsi, məhkumların müayinə və müalicəsi işi yaxşılaşdırılıb.

Məhkəmələrin infrastrukturunun yeniləşdirilməsi, Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin xeyli genişləndirilməsi, hakimlərin şəffaf seçimi, "Elektron məhkəmə" informasiya sisteminin və müasir İKT-lərin geniş tətbiqi məhkəmələrin müstəqilliyini, şəffaflığını və əlçatanlığını daha da artırır.

Bu günlərdə ölkəmizdə bir çox mühüm dövlət təsisatlarının 100 illik yubileyləri qeyd olunur. Sevindirici haldır ki, Cümhuriyyətimizlə həmyaşıd olan Azərbaycan Ədliyyəsinin də bu il noyabr ayının 22-də 100 illiyi tamam olur və bu ərəfədə ölkə Prezidenti tərəfindən "Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis olunması ədliyyə fəaliyyətinə göstərilən diqqət və qayğının əyani təzahürüdür. Yubiley münasibətilə Ədliyyə Nazirliyi tərəfindən xüsusi tədbirlər planı təsdiq olunaraq silsilə tədbirlər keçirilir, nazirliyin tarix muzeyləri Xalq Cümhuriyyəti dövrünə, o cümlədən ədliyyə tarixinə dair yeni arxiv materialları ilə zənginləşdirilir, ədliyyə orqanlarında yığıncaqlar, "dəyirmi masa"lar təşkil olunur.

Azərbaycan ədliyyə sistemi geniş islahatlar aparılmaqla müasir inkişaf yolu keçib və bunun da nəticəsində ədliyyə orqanlarının fəaliyyət istiqamətləri genişlənib. Görülən işlər nəticəsində fəaliyyətinin əsasları ulu öndər tərəfindən yaradılmış Ədliyyə Nazirliyi dövlət orqanları sistemində çox nüfuzlu quruma çevrilib. Ədliyyə orqanları dövlətçilik amallarına daim sadiq qalaraq ölkəmizin inkişafı və qüdrətlənməsi naminə bundan sonra da yüksək əzmlə çalışacaqlar.

**Vəfa ƏZİZOVA,**
**Sumqayıt İqtisadi-İnzibati Məhkəməsinin hakimi.**

# Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir

Ölkəmizin siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard təşkilat Yeni Azərbaycan Partiyası 90-cı illərin əvvəllərində ölkəmizdə meydana çıxan mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranmışdır. Həmin dövrdə xaos və qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq, məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya olan dövlətimizi xilas etmək məqsədilə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, o cümlədən ziyalılar ulu öndər Heydər Əliyevə müraciət etdilər. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: **"Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".**

Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: **"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".**

Nəticə etibarilə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası yaradıldı və ulu öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, ümummilli lider Heydər Əliyevin bu partiyaya rəhbər seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət idi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Çünki bütün uzaqgörən insanlar Heydər Əliyevin rəhbəri olduğu bu qurumun xilaskar bir missiya üçün yarandığını anlayır və Yeni Azərbaycan Partiyasına dəstəklərini əsirgəmirdilər. Həmin tarixi hadisələri dəyərləndirən ulu öndər Heydər Əliyev deyirdi: **"Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə böyük təqiblər şəraitində yaranmış bir partiyadır".**

Sirr deyil ki, yarandığı gündən YAP-ın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiya ötən 26 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib. Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyevin partiyanın V Qurultayında vurğuladığı kimi, YAP ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır.

Ötən il noyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində dövlət başçısı, partiyanın sədri İlham Əliyev demişdir: **"Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır".**

YAP Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli yer tutan partiyadır. Faktiki olaraq ümumxalq partiyasıdır. Cəmiyyətimizin avanqard hissəsi YAP-da birləşib. Partiya Azərbaycanın çətin və böhranlı bir dövründə yaranıb. Hakim partiyanın tarixi Azərbaycan ictimaiyyətinə bəllidir. Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin qarşısında çox mühüm vəzifələr dayanırdı.

Partiyanın, xalqımızın lideri və o dövrdə ölkəni böhrandan çıxarmağa qadir olan şəxsiyyət ulu öndər Heydər Əliyevin belə bir siyasi təşkilatı yaratması həmin zamanın tələbi idi. Həyat göstərdi ki, məhz ümummilli lider Heydər Əliyevin yaratdığı YAP millət qarşısında duran tarixi vəzifəni yerinə yetirməyə qadir olan bir partiya kimi özünü göstərdi. Beləcə, hakim partiya tarixi sınaqdan çıxdı. YAP yarandıqdan sonra ümummilli vəzifələrin həyata keçirilməsi üçün ciddi səylər ortaya qoyuldu.

Az zaman içərisində xalqın böyük dəstəyi ilə YAP iqtidara gəldi. Ümummilli lider xalqı öz ətrafında birləşdirərək YAP-ın kadrları, o cümlədən xalqın bütün təbəqələrinin dəstəyi ilə milli müstəqilliyimizin dönməzliyini təmin etdi, Azərbaycanın sosial-iqtisadi inkişaf modelini müəyyənləşdirdi, ilk dəfə olaraq xalqımız müstəqil dövlətin Konstitusiyasını qəbul etdi, dövlətin idarəçilik forması müəyyənləşdirildi, ictimai mülkiyyətdən liberal iqtisadiyyata keçid reallaşdı.

Əlbəttə ki, bütün bunlar qarşıda duran vəzifələr idi. Tarixi zərurət, şərait, ölkənin qarşısında duran ciddi vəzifələr YAP-ın yaranmasını zəruri etdi. YAP ümummilli liderin ideyasının məhsulu idi. Bu partiya inkişaf edərək bugünkü səviyyəsinə çatıb. Hazırda YAP cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən olunmuş həmin fundamental prinsiplərə söykənərək yeni, ümummilli vəzifələri həyata keçirməkdədir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, 1999-cu ildə keçirilmiş qurultaydan sonra Yeni Azərbaycan Partiyasının inkişafında mühüm bir səhifə açıldı. Ulu öndər Heydər Əliyev YAP üzvlərinin yeni mərhələdə əsas vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi. Ən mühüm amil isə partiyada ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan gəncləşdirmə siyasəti oldu. YAP rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq İlham Əliyevin təmsilçiliyi bu mənada xüsusilə qeyd olunmalıdır. Məhz 1999-cu ildə keçirilən qurultayda o zaman ARDNŞ-in birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi.

2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP sədrinin birinci müavini cənab İlham Əliyevin təşkilatın sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Prezident İlham Əliyevin rəhbərliyə seçilməsindən sonra kəmiyyət və keyfiyyət baxımından partiyada əhəmiyyətli dərəcədə dəyişikliklər müşahidə olundu. Faktlara diqqət yetirdikdə ötən müddət ərzində Heydər Əliyev ideyalarına söykənən partiyamızın ilbəil gücləndiyinin bir daha şahidi olarıq. Belə ki, əgər YAP-ın 2001-ci ildə keçirilmiş II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Hazırda isə partiyamızın üzvlərinin sayı 700 mindən artıqdır.

Beləliklə, Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. Sirr deyil ki, YAP ulu öndər Heydər Əliyev yolu ilə irəliləyərək çox böyük və şərəfli yol keçib. Əminliklə söyləyə bilərik ki, cəmiyyətin avanqard siyasi qüvvəsi



kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. YAP öz səmərəli fəaliyyəti ilə Azərbaycanın inkişafına xüsusi töhfələr verir, ölkənin etibarlı gələcəyinin təmin olunmasında müstəsna rol oynayır. Bir sözlə, ulu öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.

YAP yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ən monolit, ən qüdrətli bir siyasi qurumudur. Bu partiya ümummilli lider Heydər Əliyevin xalqımıza verdiyi ən böyük töhfələrdən biridir. Ümummilli liderin rəhbərliyi ilə, onun ətrafında yaranan bu partiya Azərbaycanda dövlət quruculuğuna, müstəqilliyin möhkəmlənməsinə, ölkənin inkişafına, respublikada vətəndaş cəmiyyətinin, milli birliyin formalaşmasına sanballı töhfələr verib. Partiyamız böyük beynəlxalq nüfuza malikdir, bir sıra ölkələrin aparıcı partiyaları ilə əməkdaşlıq edir ki, bütün bunlar da YAP-ın nə qədər mükəmməl bir siyasi qurum olduğunu təsdiqləyir.

Bu gün müstəqil Azərbaycan dövləti ilə birgə addımlayan, dövlətimizin qazandığı uğurlarda böyük pay sahibi olan Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə Azərbaycan xalqının etimadını doğruldub. YAP Azərbaycan cəmiyyətinin, siyasi sisteminin, daxili sosial, etnik, mədəni və s. strukturlarını təmsil edəcək siyasi, mədəni keyfiyyətlərə sahibdir. Belə olmasa idi, zəngin daxili sosial-siyasi və milli-etnik quruluşa malik olan bir ölkədə bu qədər güclənmək olmazdı. YAP milli maraqları təmsil edən monolit siyasi gücdür desək, yanılmarıq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, **"Yeni Azərbaycan Partiyası siyasi sistemimizin ən əsas sütunudur və ən böyük təsirə malik olan partiyadır. Ölkəmizdə siyasi islahatların dərinləşməsində də Yeni Azərbaycan Partiyasının xüsusi rolu və məsuliyyəti vardır".**

**Vəli ALBƏNDOV,**
**Yeni Azərbaycan Partiyasının üzvü, "Qarabağ E.R." MMC-nin direktoru, respublikanın Əməkdar mühəndisi.**

# Uşaq hüquqlarının müdafiəsi və təşviqi dövlətimizdə ali məqsədlərdəndir

**Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir.**
**Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir.**

**Heydər ƏLİYEV.**

Bu günümüz və gələcəyimiz olan uşaqların hüquqlarının müdafiəsinə, xalqımızın ən dəyərli sərvəti kimi onların hərtərəfli inkişafına nail olmaq dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Buna görə də uşaqların fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşdırılması sahəsində davamlı iş aparılır.

Uşaqların hüquqlarının müdafiəsinin hərtərəfli təmin olunması ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir və cəmiyyətdə uşaqların maraqlarının müdafiəsinin prioritet istiqamətini təşkil edir. Təbii ki, BMT-nin Baş Məclisi tərəfindən 1989-cu il 20 noyabr tarixdə qəbul edilmiş "Uşaq Hüquqları Konvensiyası"na Azərbaycan Respublikasının hələ dövlət müstəqilliyinin bərpasının ilk illərində qoşulması, sonrakı dövrlərdə həmin beynəlxalq müqavilənin fakültativ protokollarının da ratifikasiya edilməsi, eləcə də milli qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı mütəmadi olaraq islahatların aparılması, "Uşaq hüquqları haqqında" xüsusi bir qanunun qəbul edilməsi də məhz onların hüquq və mənafelərinin daha səmərəli müdafiəsinə yönəlmişdir.

Uşaq Hüquqları Konvensiyası BMT tərəfindən qəbul edilmiş mühüm bir beynəlxalq müqavilə olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara bu Konvensiya ilə müəyyən edilmiş hüquqları təmin etməklə bərabər, uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət uşaq siyasəti ölkəmizdə uşaqlara xüsusi diqqət və qayğı ilə yanaşmağa, onların sağlamlığına, təhsilinə, yüksək mənəvi-əxlaqi, milli dəyərlər əsasında təlim-tərbiyə alaraq hərtərəfli inkişafına xidmət edir.

Təqdirəlayiq haldır ki, ölkəmizdə uşaqların sosial-hüquqi müdafiəsi ilə bağlı məsələlər bir sıra qanunvericilik aktlarında öz əksini tapmışdır. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasında da uşaqların hüquq və mənafelərinin müdafiəsi ilə bağlı müvafiq normalar təsbit edilmiş və uşaq hüquqlarının həyata keçirilməsinə dövlətin nəzarət etdiyi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda, "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda, "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda, "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı"nda, habelə digər bu kimi sənədlərdə uşaqlarla bağlı problemlərin həllinə yönəlmiş müddəalar nəzərdə tutulmuş və hazırda onların icrası uğurla davam etdirilməkdədir.

Bundan əlavə, BMT-nin 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədləri uşaqlar da daxil olmaqla hər kəsi əhatə edən və universal xarakter daşıyan məqsədlər olaraq, "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutur.

Yeri gəlmişkən, hər bir kəsin ayrı-seçkiliyə məruz qalmadan bərabər şəkildə hüquqlardan istifadə etməsi prinsipi bu ilin 10 dekabr tarixində qəbul olunmasının 70 illiyini qeyd edəcəyimiz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas qayəsini təşkil edir. Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, həmin prinsiplər hələ 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) İstiqlal Bəyannaməsində öz əksini tapmışdır.

Belə ki, AXC-nin dövründə qadınlar və uşaqlar da diqqətdən kənarda qalmamışdır. Xalq Cümhuriyyətinin qanunverici orqanı olan Parlamentin qəbul etdiyi qanunlar, xüsusilə də 16 yaşınadək uşaqların işləməsinin qadağan olunması, müəssisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması, uşaq bağçalarının açılması, məktəblərin sayının artırılması və digər məsələlərlə bağlı aparılan müzakirələr həmin dövrdə uşaqların ən ümdə maraqlarının daim diqqətdə saxlandığının bariz nümunəsidir.

Ölkə başçısının 2018-ci il 10 yanvar tarixli Sərəncamına əsasən 2018-ci il respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunaraq ölkədə və xaricdə müxtəlif silsilə tədbirlər keçirilmiş, müstəqillik tariximizə nəzər salınmış, Cümhuriyyətin dövlətçilik salnaməsində yeri və rolu barədə ətraflı məlumat verilmişdir.

Qeyd etmək lazımdır ki, uşaq hüquqlarının müdafiəsi ilə bağlı məsələlər dövlət tərəfindən xüsusi diqqətdə saxlanılır, onların hüquq və azadlıqlarının təmini istiqamətində zəruri tədbirlər görülür. Yeni ümumtəhsil məktəblərinin istifadəyə verilməsi, müasir standartlara cavab verən sosial xidmət və tibb müəssisələrinin, reabilitasiya mərkəzlərinin inşası və ya əsaslı təmiri, müxtəlif patologiyalardan əziyyət çəkən uşaqlar üzərində əməliyyatların aparılması, əlilliyi olan şəxslərin sosial statuslarının bərpasına xidmət edən layihələrin dəstəklənməsi, eləcə də dövlət uşaq müəssisələrinin hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunları üçün çoxmənzilli yaşayış binasının tikilməsi ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın sosial müdafiəyə ehtiyacı olan insanlara diqqətinin bariz təzahürüdür.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) öz səlahiyyətləri çərçivəsində uşaq hüquqları sahəsində də müstəqil monitorinq mexanizmi kimi fəaliyyət göstərir. Odur ki, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi və müdafiəsi, pozulmuş hüquqların bərpası Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Ombudsmanın bu sahədə işinin daha səmərəli əlaqələndirilməsi məqsədilə təsisatda və Regional Mərkəzlərdə uşaq hüquqları üzrə ixtisaslaşdırılmış müşavirlər fəaliyyət göstərir.

Müvəkkilin ünvanına uşaq hüquq pozuntuları ilə bağlı şikayətlər daxil olur və həmin müraciətlərə dərhal reaksiya verilərək, qaldırılan problemlərin həlli istiqamətində müvafiq addımlar atılır.

20 noyabr - Ümumdünya Uşaqlar Günü münasibətilə Ombudsmanın təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq, 20 oktyabr - 20 noyabr tarixlərində Uşaq Hüquqları Aylığı keçirilir. Aylıq çərçivəsində Ombudsmanın Aparatı və regional mərkəzləri, müvafiq dövlət qurumları, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr, qeyri-hökumət təşkilatları və icmalar tərəfindən uşaqların birbaşa iştirakı ilə tədbirlər həyata keçirilmiş, təhsil müəssisələrində uşaqlar arasında müxtəlif istiqamətli yarış və müsabiqələr təşkil olunmuşdur.

Ombudsman Aparatının və ətraf rayonları əhatə etməklə Gəncə, Şəki, Quba və Cəlilabadda fəaliyyət göstərən regional mərkəzlərinin əməkdaşları tərəfindən Bakı şəhərində və ölkəmizin regionlarında uşaq hüquqlarının maarifləndirilməsi istiqamətində silsilə tədbirlər təşkil edilmiş, uşaq tərbiyə müəssisəsinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanma yerlərinə başçəkmələr olmuş, qaçqın və məcburi köçkün ailələrdən olan uşaqlarla görüş keçirilmiş, təhsil müəssisələrində uşaqlarla müzakirələr aparılmışdır.

Müvəkkil Aparatının və Dövlət Miqrasiya Xidmətinin birgə təşkilatçılığı ilə ölkəmizdə qaçqın ailələrdən olan uşaqlar və onların valideynləri üçün keçirilmiş tədbirdə Aparatın nümayəndəsi çıxış edərək, insan hüquqlarının tərkib hissəsi kimi uşaq hüquqlarının yaranma tarixi, dövlətdaxili və beynəlxalq sənədlər, ölkəmizdə bu sahədə həyata keçirilən islahatlar barədə iştirakçılara ətraflı məlumat vermişlər. Həmçinin tətbiq edilən beynəlxalq hüquqi aktların müddəaları barədə danışılmış, Uşaq Hüquqları Konvensiyasının 22-ci maddəsinə əsasən, "qaçqın" statusu almaq niyyətində olan və ya qaçqın uşağın, həmçinin hər hansı bir səbəbdən öz ailə mühitindən daimi və ya müvəqqəti məhrum olmuş uşaqların müdafiəsi, humanitar yardımla təmini, o cümlədən öz valideynlərini və ya digər ailə üzvlərini axtarıb tapması, ailə birləşməsi üçün gərəkli məlumat almasına dəstək verilməsi və bu sahədə əlaqələndirmənin gücləndirilməsi məqsədilə BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

Müvəkkil tərəfindən əsası qoyulmuş və fəaliyyətini Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olaraq davam etdirən Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin (AUGSŞ) Liderlik Məktəbinin 18-ci dərs ilinin açılışı Aylıq çərçivəsində keçirilmişdir. Tədbirdə Ombudsman, Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin məsul nümayəndələri, Liderlik məktəbinə cəlb olunmuş yeni üzvlər, habelə əvvəlki buraxılışların məzunları, ümumilikdə 150-dən artıq uşaq və gənc, həmçinin valideyn və müəllimlər qatılmışdır. 2001-ci ildən etibarən müntəzəm olaraq fəaliyyət göstərən Liderlik Məktəbində Uşaq Hüquqları Konvensiyası və müvafiq milli qanunlar üzrə uşaq hüquqlarının öyrənilməsi və tətbiqi vasitəsilə uşaqların vəziyyətini, onların ictimai həyatda iştirakını və öhdəliklərini inkişaf etdirməyə, uşaq və gənclərə vətənpərvərlik hissinin aşılanmasına, ölkə üçün layiqli vətəndaş olaraq əsl lider kimi yetişməsinə xüsusi önəm verilir.

Uşaqların inkişafı naminə yaranmış, eyni məqsəd və məramlı uşaq və gənclərin müstəqil, bərabərhüquqlu şəbəkəsində məqsədyönlü işlər, tədbirlər uğurla davam etdirilir.

Liderlik məktəbində 9 noyabr - Dövlət Bayrağının 100 illiyi münasibətilə "Azərbaycan - yurdum mənim!" devizi altında Ombudsmanın və Azərbaycanın tanınmış hərbi diktoru və hərbi vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlının, 120-dək məktəblinin və valideynlərin iştirakı ilə tədbir keçirilmişdir.

Həmçinin, Liderlik məktəbində 20 noyabr - Ümumdünya Uşaqlar Gününə həsr olunmuş "Uşaq Hüquqları Konvensiyasını öyrənək və öyrədək" adlı maarifləndirmə tədbirində iştirak edən Ombudsman uşaqlara həmin əlamətdar günün əhəmiyyəti, Müvəkkilin fəaliyyətində uşaq hüquqlarının təmin olunmasına xüsusi diqqət yetirildiyini və təsisatda uşaqlara qarşı zorakılıq və digər hüquq pozuntuların vaxtında müəyyən edilərək araşdırılması məqsədilə 24 saat fəaliyyət göstərən 916 qaynar xətti barədə məlumatları diqqətə çatdırmışdır.

Aylıq çərçivəsində Müvəkkil 160 saylı klassik gimnaziyada olmuş, məktəblilərlə görüşmüş, onlara hüquq və vəzifələri barədə ətraflı məlumatlar vermiş, təsisatın nəşrləri məktəbin kitabxanasına hədiyyə edilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən Uşaq Hüquqları Aylığı çərçivəsində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Tərbiyə müəssisəsində saxlanılan yetkinlik yaşına çatmayan şəxslər üçün hüquqi maarifləndirmə tədbirləri təşkil olunmuş, yetkinlik yaşına çatmayanlara diqqətin artırılması və hüquqlarının təmini vəziyyətinin daha da yaxşılaşdırılması, ölkədə bu sahədə görülən işlər haqqında geniş məlumat verilmiş, uşaq hüquqları sahəsində mövcud olan beynəlxalq və milli qanunvericilik, BMT-nin Uşaq Hüquqları Konvensiyası, Pekin qaydaları və Ər-Riyad təlimatları əsasında müəyyən olunmuş hüquq və vəzifələr, bu hüquqların müdafiə mexanizmləri, həyata keçirilməli olan preventiv tədbirlər haqqında məlumatlar diqqətə çatdırılmışdır.

Yeri gəlmişkən, Ombudsman təsisatı ilə UNİCEF arasında imzalanmış fəaliyyət planı çərçivəsində də Müvəkkilin MPM qrupunun üzvləri UNİCEF-in məsul əməkdaşları ilə birgə uşaq müəssisələrində monitorinqlər həyata keçirir.

Ombudsman Aparatı tərəfindən Təhsil Nazirliyinin İlyas Əfəndiyev adına Elitar Gimnaziyasında müəllimlərin və çoxsaylı şagirdlərin iştirakı ilə Uşaq Hüquqları Konvensiyası üzrə maarifləndirmə tədbirində milli və beynəlxalq qanunvericilik, dövlətimizin uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi tədbirlər barədə iştirakçılara ətraflı məlumat verilmişdir.

Qeyd olunmuşdur ki, Müvəkkilin təşəbbüsü və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramı 2017-2018-ci tədris ilində də davam etdirilmiş, Bakı şəhərinin hər bir rayonu və Balakən, Qax, Şəmkir, Samux, Şabran, Xaçmaz, Salyan və Neftçala rayonları üzrə hər birində bir məktəb olmaqla, 20 məktəbdə 1345 şagird, 20 direktor və 52 müəllim bu prosesdə iştirak etmişdir. Ümumilikdə 2009-2010-cu tədris ilindən etibarən hər il keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramına ölkədəki 170-dən çox məktəb cəlb edilmiş, bu prosesdə fərqlənmiş 10000-dən artıq şagird Ombudsman tərəfindən sertifikatla təltif edilmiş, 800-dən çox müəllim və direktor təşəkkürnamə almışdır. Ombudsman Aparatı tərəfindən hazırlanaraq çap olunmuş uşaq hüquqları üzrə maarifləndirici vəsaitlər məktəb kitabxanasına təqdim edilmişdir.

Gəncə Regional Mərkəzi tərəfindən Təhsil Nazirliyinin Goranboy və Tovuz rayonlarında yerləşən İnteqrasiya təlimli internat tipli gimnaziyalarında, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Gəncədə yerləşən 2 saylı İstintaq Təcridxanasında, Cəlilabad Regional Mərkəzi tərəfindən Lerik şəhər V.İbrahimov adına İnteqrasiya təlimli internat tipli gimnaziyada, Lerik rayon Piran kənd tam orta məktəbində, Cəlilabad şəhər 4 saylı tam orta məktəbdə, 8 saylı tam orta məktəbdə, Cəlilabad rayon 5 saylı tam orta məktəbdə, Suluçeşmə kənd ümumi orta məktəbində, Astara şəhər 3 saylı tam orta məktəbdə, Astara rayon Şahağacı kənd Davud Əsədov adına 2 saylı tam orta məktəbində, Artupa kənd tam orta məktəbində, Lənkəran şəhər 2 saylı tam orta məktəbdə, O.Mirzəyev adına qarışıq tipli uşaq evində, Lənkəran rayon Şağlaser kənd tam orta məktəbdə, Sakit Tağıyev adına Masallı şəhər 4 saylı Digah tam orta məktəbində, Biləsuvar rayon Malik Piriyev adına Əliabad kənd tam orta məktəbində, Quba Regional Mərkəzi tərəfindən Qubadakı Heydər Əliyev Mərkəzində, Şabran rayon 5 saylı və Qusar şəhər 6 saylı məktəblərdə, Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbində, Siyəzən şəhər 3 nömrəli tam orta məktəbdə, Quba şəhər 4 nömrəli məktəbdə, "Bəşir Səfəroğlu" adına Quba rayon mədəniyyət mərkəzində, Şəki Regional Mərkəzi tərəfindən isə Qax rayonunun Sarıbaş və Oğuz rayonunun Bucaq kəndlərində, Şəki şəhər qarışıq tipli uşaq evində, Şəki şəhər 5 saylı tam orta məktəbdə, Qəbələ rayon Böyük Əmili kəndində aylıq çərçivəsində keçirilən tədbirlərdə müvafiq dövlət qurumlarının, o cümlədən yerli icra hakimiyyətlərinin, rayon təhsil və mədəniyyət şöbələrinin, habelə bələdiyyələrin və icmaların nümayəndələri, fəal gənclər, çoxsaylı müəllimlər, uşaqlar və valideynlər iştirak etmişlər.

Müvəkkil və Liderlik məktəbinin üzvləri Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər çərçivəsində şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd orta məktəbində olmuş, müəllimlər, şagirdlər, valideynlər və kənd sakinləri ilə görüşmüşlər. Ombudsman məktəbin kitabxanasına Azərbaycan dilində Uşaq Hüquqları Konvensiyası və onun tədrisi üçün dərs vəsaitini, uşaqlar üçün ensiklopediya, "Qısa İslam Ensiklopediyası" və "Bunları bilmək istəyirəm" adlı intellektual ensiklopediya hədiyyə edərək, müəllim və şagirdlərin bu kitablardan yararlanmasını, dərs prosesində geniş istifadə edilməsini, həmçinin şagirdlərin dövlətimizin tarixini, ədəbiyyatını, müasir informasiya-kommunikasiya texnologiyalarını, xarici dilləri mükəmməl öyrənməsini, ictimai fəal və vətənpərvərlik ruhunda böyümələrini tövsiyə etmişdir. Bu məktəbin şagirdinin də Ombudsmanın uşaq hüquqları üzrə elan etdiyi rəsm müsabiqəsinin qalibi olduğu bildirilmişdir.

Səfər çərçivəsində N saylı hərbi hissənin ön xəttə yerləşən bölüyündə düşmənlə üzbəüz cəsarətlə dayanan əsgər və zabitlərlə də görüş keçirilmişdir. Qeyd edilməlidir ki, Liderlik məktəbinin üzvü, Həbibbəy Mahmudbəyov adına 2 saylı texniki-humanitar liseyinin 7-ci sinif şagirdi, 13 yaşlı Əsgərov Zaur Yusif oğlunun lisey yoldaşları ilə birgə "Əsgərə məktub" kampaniyası çərçivəsində bu ön xətdə olan əsgərlərə məktub yazmaları hərbi qulluqçular tərəfindən sevinclə qarşılanmışdır.

Uşaq Hüquqları Aylığı çərçivəsində də Cocuq Mərcanlı kənd orta məktəbində maarifləndirmə tədbirləri keçirilmişdir.

Müvəkkillin təşəbbüsü ilə Liderlik Məktəbinin 100-dək üzvü, onların valideynləri və müəllimləri AMEA-nın Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovla görüşmüşlər. Onlar İnstitutda Y.Məmmədəliyevə həsr olunmuş Memorial Muzeydə olmuş, oradakı eksponatlara baxmış və ətraflı məlumat almış, V.Abbasovun müəllifi olduğu "Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri" adlı kitab Liderlik Məktəbinin üzvlərinə bağışlanmışdır.

Bundan əlavə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qala qəsəbəsindəki Eko Park: Ekoloji Tədqiqatlar Mərkəzində keçirilən "Sağlam ətraf mühit naminə çalışaq" adlı tədbirdə Ombudsmanın nümayəndəsi və Liderlik məktəbinin üzvləri ekoloji hüquqların həyata keçirilməsi sahəsində apardıqları işlər barədə ətraflı məlumat və prezentasiyalar təqdim ediblər. Bu kimi tədbirlər uşaqların ekologiyanın qorunması, yurd sevgisi, zəngin təbii sərvətlərimizdən səmərəli istifadə edilməsi ruhunda tərbiyə olunmasına və onların ekoloji şüurunun formalaşmasına xidmət edir.

Ombudsman uşaq hüquqları sahəsində respublikamızla yanaşı, beynəlxalq miqyasda da uğurla fəaliyyət göstərir.

2008-ci ildən etibarən Ombudsman Aparatı İnnoçenti Tədqiqat Mərkəzinin tövsiyəsi ilə Avropanın Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə (ENOC) üzv olaraq təşkilatın işində fəal iştirak edir. Belə ki, 2018-ci ildə də İspaniyanın Barselona şəhərində ENOC-un təşkil etdiyi beynəlxalq Avropa Gənc Məsləhətçilər Şəbəkəsinin (ENYA) forumunda Aparatın əməkdaşı və AUGSŞ-nin iki üzvü iştirak etmişlər. Ombudsmanın nümayəndəsi beynəlxalq forumda "Danışın gənclər, uşaqların mental sağlamlığı barədə danışın!" adlı layihənin həyata keçirilməsi ilə bağlı müzakirələrdə iştirak edərək, Müvəkkilin uşaq hüquqlarının müdafiəsi və təmini sahəsində həyata keçirdiyi tədbirlər barədə iştirakçılara məlumat vermişdir.

Ölkə təmsilçiləri olaraq, AUGSŞ-nin üzvləri tərəfindən layihə çərçivəsində böyük hazırlıq işlərinin görüldüyü, təşkilatın üzvləri arasından yaradılmış 11-18 yaşlı uşaqlardan ibarət qrupla çoxsaylı görüşlərin keçirildiyi, mövzu üzrə müxtəlif müzakirələrin, qrup işlərinin aparıldığı və mental sağlamlığa dair ölkədə həyata keçirilən fəaliyyət barədə təqdimatla çıxış etmişlər.

Bununla yanaşı, Fransanın Paris şəhərində ENOC və Fransanın Uşaq Hüquqları üzrə Müvəkkili tərəfindən təşkil olunan "Uşaqların hüquqları və rifahı, mental sağlamlığın təşviqi" mövzusuna həsr olunmuş ENOC-un 22-ci İllik Konfransında və Baş Assambleyasında Ombudsman Aparatının nümayəndəsi və AUGSŞ-nin üzvü də iştirak etmişdir. Uşaq hüquqlarına dair keçirilən müzakirələrdə səmərəli fikir və təcrübə mübadiləsi aparılmış, təsisatın əməkdaşı tərəfindən tədbirin mövzusu ətrafında fikir bildirilmiş, artıq 25 ildən çox müddətdə ölkəmizdə mövcud olan müharibə şəraitində yaşayan uşaqların mental sağlamlığına müharibənin mənfi təsirləri barəsində çıxış edilmişdir.

Hər il olduğu kimi, bu il də Ombudsman Aparatı tərəfindən "10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü" münasibətilə 18 yaşınadək uşaqlar və yeniyetmələr arasında "Mən və mənim hüquqlarım" mövzusunda uşaq rəsmlərinin və "Hüquqlar hamı üçün!" mövzusunda jurnalist yazılarının ənənəvi müsabiqəsi elan olunmuşdur.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən aylıq çərçivəsində görülən işlər, təşkil olunmuş maarifləndirmə tədbirləri ilə bağlı Müvəkkilə ünvanlanmış arayış təhlil edilmişdir ki, respublikanın hər bir şəhər və rayonlarında uşaq hüquqları aylığına xüsusi önəm verildiyi, uşaq hüquqlarının təmini və hüquqi maarifləndirmə işlərinə diqqətin daha da artırıldığı məlum olmuşdur.

Daxili İşlər Nazirliyi tərəfindən uşaq və gənclər təşkilatlarında, orta ümumtəhsil məktəblərində müxtəlif səpkidə, o cümlədən "Uşaq hüquqları və cəmiyyət", "Uşaq hüquqlarının müdafiəsində polisin rolu", "Zərərli vərdişlərə yox deyək", "Uşaqlar cəmiyyətin gələcəyidir", "Valideyn və uşaq münasibətlərində qanunvericilik", "Narkomaniya yoxsa həyat", "Erkən nikah", "Tütün məmulatlarının zərərli təsiri" və s. mövzularda çıxış və məruzələr dinlənilmiş, uşaqları maraqlandıran sual-cavab viktorinaları, intellektual oyunlar təşkil olunmuşdur. Eyni zamanda ölkədə Yuvenal Ədliyyə sistemi islahatlarına uyğun olaraq Bakının Sabunçu rayonunda və Gəncə şəhərində fəaliyyət göstərən "Uşaq hüquq klinikası" və "Uşaq və gənclərin sosial reabilitasiyası mərkəzi"ndə ötən dövrdə hüquqpozma törədən və buna məruz qalan 12 yeniyetmə ilə sosial bərpa və reabilitasiya tədbirləri həyata keçirilmiş, onlara zəruri köməkliklər göstərilmişdir.

Baş Prokurorluq tərəfindən əməliyyat işçilərinin iştirakı ilə "Uşaq Hüquqları Konvensiyası və Azərbaycan" mövzusunda seminar keçirilmişdir. Bununla yanaşı, prokurorluq orqanlarına ilk dəfə qulluğa qəbul edilən namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə Ədliyyə Akademiyasında təşkil edilmiş icbari təlimlər zamanı uşaq hüquqlarının müdafiəsi sahəsində prokurorluq işçilərinin rolunun artırılmasına, bu sahədə mövcud olan neqativ halları onların diqqətinə çatdırmaqla, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər üzrə istintaq taktikasının müasir metodlarına, eləcə də yetkinlik yaşına çatmayanların inzibati məsuliyyətə cəlb edilməsinin xüsusiyyətlərinə diqqət yetirilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən Tərbiyə müəssisəsində məhkumlarla informasiya məşğələlərində "Azərbaycan Respublikası Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanun, "Əfvetmə - məhkum olunmuş şəxsə göstərilən humanizmin təzahürüdür, məhkumların əfv olunmaq üçün müraciət etmək hüququ", "Müasir dövrdə yeniyetmə və gənclərin sosial-psixoloji problemləri, onların aradan qaldırılması istiqamətində psixomaarifləndirmə tədbirlərinin rolu", "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)", "Azərbaycan ədliyyəsi müstəqilliyimizlə birgə inkişaf edir", "Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrası qaydası" mövzularında maarifləndirici seminarlar, habelə müəssisədə fəaliyyət göstərən 45 saylı tam orta məktəbdə BMT-nin "Uşaq Hüquqları Konvensiyası"nın müddəalarını özündə əks etdirən mövzularda mühazirələr oxunmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində futbol festivalı keçirilmişdir. Bundan əlavə Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən Bakının Xətai rayonunda yerləşən 56 nömrəli orta məktəbdə əmək münasibətləri sahəsində uşaq hüquqlarına dair maarifləndirmə tədbiri təşkil olunmuşdur.

Təhsil Nazirliyi tərəfindən Bakıda və regionların çoxsaylı təhsil müəssisələrində keçirilmiş silsilə tədbirlərdə şagirdlərə uşaq hüquqlarının yaranma tarixi, milli və beynəlxalq qanunvericilik, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə ətraflı məlumat verilmişdir.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin təşkilatçılığı ilə "Hemofiliyanın müalicəsində yeni yanaşmalar" mövzusunda elmi-praktik seminar, "Narkomaniya ilə mübarizə", "Ekologiya və sağlamlıq", "Düzgün gigiyenik vərdişlər", "Sağlam qidalanma", "Fiziki aktivlik", "Zərərli vərdişlər və onlardan imtina", "Məişət zorakılığı və kobud davranış" mövzularında maarifləndirici tədbirlər, 12 saylı Uşaq Poliklinikası və bir sıra rayonların mərkəzi xəstəxanaları tərəfindən "Narkotiklər haqqında nə bilirik" mövzusunda seminarlar, uşaq kontingentinə göstərilən tibbi xidmətin müxtəlif sahələri üzrə mütəmadi olaraq "ARB" televiziya şirkətinin "Sağlam həyat" verilişində həkimlərin çıxışları təşkil edilmiş, uşaq hüquqlarının təmininə və təbliğinə xidmət edən dəyirmi masa təşkil olunmuşdur.

Mədəniyyət Nazirliyinin Bakı şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən "Uşaqların yaşamaq və inkişaf etmək hüququ", "Mənim hüquqlarım" adlı dəyirmi masalar təşkil olunmuş, "Uşaq hüquqlarını qoruyaq" adlı slayd nümayiş olunmuş, regional mədəniyyət idarələrinin təşkilatçılığı ilə uşaq hüquqlarını təbliğ edən mövzularda müxtəlif tədbirlər (dəyirmi masa, maarifləndirici söhbətlər, kitab sərgiləri, seminarlar, şeir, rəsm, inşa-yazı müsabiqələri, konsert proqramları və s.) keçirilmişdir.

İqtisadiyyat Nazirliyi tərəfindən "Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda konfranslar, "İstehlakçı-sahibkar münasibətləri: qarşılıqlı hüquq və vəzifələr" mövzusunda dəyirmi masa, "İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir" mövzusunda seminar keçirilmiş, gündəlik istehlakda geniş istifadə olunan uşaq geyimləri və oyuncaqların istehlak xassələri barədə maarifləndirici məlumatlar müxtəlif kütləvi informasiya vasitələrində yayımlanmışdır.

Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları tərəfindən aylıq çərçivəsində respublikanın bütün regionlarında müxtəlif təhsil və təlim-tərbiyə müəssisələrində "Fövqəladə hallarla bağlı davranış qaydaları" adlı maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən 23 saylı orta məktəbdə və Bakı Avropa liseyində keçirilmiş tədbirdə internetin yaranması və inkişaf tarixi, müasir dövrdə uşaqların internetdən təhlükəsiz istifadəsi, internetdən istifadə zamanı uşaqların hüquqlarının qorunması, uşaq hüquqlarının qorunması zamanı qanunçuluq prinsipinin rəhbər tutulması ilə bağlı müzakirələr aparılmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən respublikanın müəssisə və təşkilatlarında, o cümlədən məktəblərdə insanların sağlam ətraf mühitdə yaşama hüququnun təmin edilməsi məqsədi ilə "Ətraf mühiti birgə qoruyaq", "Plastik qabların və polietilen torbaların insan sağlamlığına və ətraf mühitə təsiri", "Məktəblilərin ekoloji təhsili və maarifləndirilməsi", "Ekologiya və mən", "Yaşıllıqların qorunmasında məktəblilərin rolu", "Tullantıların düzgün idarə olunması", "Ekologiya uşaqların gözü ilə", "Ətraf mühitin mühafizəsində uşaqların rolu", "Ətraf mühitin qorunması və sağlam təbiət, sağlam gələcək", "Sağlam mühitdə yaşamaq üçün ictimaiyyətin üzərinə düşən vəzifələr" və s. mövzularda ekoloji maarifləndirici seminar-məşğələlər, dəyirmi masalar, sərgi, görüşlər keçirilmiş, mətbuatda çıxışlar təşkil edilmiş, əhali arasında ekoloji plakatlar, bukletlər və broşurlar paylanılmışdır.



Elmira SÜLEYMANOVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman).

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən aylıq çərçivəsində ölkəmizin müxtəlif bölgələrində məcburi köçkünlərin məskunlaşması məqsədilə salınmış qəsəbələrdə və digər məskunlaşma obyektlərində tədbirlər keçirilmiş, tədbir iştirakçılarına uşaqların hüquqları, problemləri və bu sahəyə dövlət qayğısı barədə müvafiq məlumatlar verilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Uşaq hüquqları", "Narkomaniyaya yox deyək", "Erkən nikah", "Uşaq əməyi" adlı maarifləndirici tədbirlər keçirilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "Uşaqların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu", "Uşaqları dini fanatizm və radikalizm təhlükəsindən qoruyaq!", "Məktəblilərin dini radikalizmin zərərli təsirlərindən mühafizəsi yolları", "Uşaqların təhsil hüququnun pozulması: erkən nikah problemi", "Uşaq zorakılığına qarşı mübarizə" və digər mövzularda tədbirlər keçirilmişdir.

Dövlət Statsitika Komitəsi Aparatının və onun tabeliyində fəaliyyət göstərən Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə "Uşaq əməyi", "Uşaqlar və silahlı münaqişə", "Uşaqların sağlamlığı və qayğı" mövzularında maarifləndirici tədbir keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Sənədsiz məktəbli qalmasın" aksiyası çərçivəsində Səyyar "ASAN xidmət" vasitəsi ilə sağlamlıq imkanları məhdud olan və uşaq evlərində yaşayan azyaşlı uşaqlar şəxsiyyət vəsiqələri ilə təmin olunmuş, eyni zamanda ASAN Könüllüləri və BMT-nin Uşaq Fondunun Azərbaycan Nümayəndəliyinin birgə əməkdaşlığı ilə "Uşaq hüquqlarının təşviqi" layihəsinin icrasına başlanılmışdır.

Milli Televiziya və Radio Şurası tərəfindən aylıq çərçivəsində teleradio yayımçılarına müvafiq tövsiyələr verilmiş, "ARB Cənub" televiziyasında uşaq hüquqlarını təbliğ edən mövzularda dəyirmi masa keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən gündəlik, günaşırı və həftəlik nəşr olunan qəzetlərdə "Uşaq və gənclərin fiziki-mənəvi inkişafı", "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqamətləri üzrə 350 səhifəyədək maarifləndirici yazılar dərc edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən müvafiq layihələr çərçivəsində QHT-lər tərəfindən "Bizim şəhər", "Vətəni sevmək azdır", "Vətəni qorumaq gərək" devizi altında vətənpərvərlik mahnılarından ibarət xor kollektivlərinin baxış müsabiqəsi, habelə Şəmkir məktəblilərinin iştirakı ilə "Şəhidlərimiz, Qəhrəmanlarımızdır!" adlı intellektual yarışma keçirilmişdir.

Aylıq çərçivəsində şəhər və rayon icra hakimiyyətləri tərəfindən uşaq hüquqlarının müdafiəsi, onlara göstərilən dövlət qayğısı, uşaq əməyinə və erkən nikahlara qarşı mübarizə, uşaqlar arasında zərərli vərdişlərin yayılmasının qarşısının alınması, sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin edilməsi və cəmiyyətə inteqrasiyası, uşaqların bərabərlik hüquqları və digər mövzularda yüzlərlə dəyirmi masa, seminar, sərgi, müsabiqə və başqa tədbirlər təşkil edilmişdir.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən uşaq hüquqları aylığı çərçivəsində görülmüş işlərin təhlilinin nəticələri göstərir ki, ölkəmizdə uşaqlarla bağlı məsələlər, bu sahədə olan problemlər bir daha araşdırılmış, həlli istiqamətində müvafiq addımlar atılmışdır. Uşaqlarla bağlı və uşaqların iştirakı keçirilən çoxsaylı maarifləndirmə tədbirləri, rəsm və inşa müsabiqələri, idman yarışları uşaqların hüquqi biliklərinin artırılmasına və vəzifə borclarının aşılanmasına, eyni zamanda gələcəyimiz üçün vətənpərvər liderlər kimi yetişmələrinə stimul olmuşdur.

Uşaq Hüquqları Aylığının keçirilməsi onu göstərir ki, Müvəkkilin təşəbbüsü ilə ölkəmizdə kütləvilik və ictimai iştirakçılıq təmin edilməklə davamlı olaraq həyata keçirilən bütün tədbirlər əhalinin uşaq hüquqları sahəsində maarifləndirilməsinə, uşaq hüquqlarının bərpası və pozulmasının qarşısının alınmasına xidmət edir. ■

# Ürək-damar cərrahlarımız Azərbaycan səhiyyəsində ilkə imza atıblar

**Ürək-damar cərrahlarımız Azərbaycan səhiyyəsi tarixində növbəti uğura imza atıblar. Ölkəmizdə ilk dəfə olaraq xəstənin özünün ürək pərdəsindən yeni ürək qapağı düzəldilərək pozulmuş ürək qapağının əvəz olunmasında istifadə edilib.**



Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətindən AZƏRTAC-a bildiriblər ki, "Ozaki əməliyyatı" adlanan cərrahi müdaxilə Mərkəzi Klinik Xəstəxananın Ürək və Damar Cərrahiyyəsi şöbəsində tanınmış ürək-damar cərrahı, klinikanın baş həkimi professor Kamran Musayev və komandası tərəfindən uğurla həyata keçirilib. Klinikaya aortal qapağın ciddi kalsifik stenozu səbəbi ilə müraciət edən 73 yaşlı kişi xəstə əməliyyatdan bir həftə sonra artıq evə yazılıb.

Ürək qapaqlarının anatomik və funksional ciddi pozulmalarında cərrahi müalicə tətbiq olunduğunu bildirən K.Musayev klassik cərrahiyyədə bu qapaqların mexaniki və bioloji protez qapaqlarla dəyişdirildiyini, ancaq həm mexaniki, həm də bioloji protez qapaqların özünəməxsus problemlərinin daim aktual olduğunu qeyd edib: "Alternativ metod kimi qapaqların təmiri əməliyyatları getdikcə geniş yayılsa da, təəssüf ki, bütün xəstələrdə tətbiq oluna bilmir. Son illərdə yapon alimi Şiqeyuki Ozaki tərəfindən təklif edilən metod aortal qapağın cərrahi müalicəsində inqilabi dəyişikliyə səbəb olub. "Ozaki əməliyyatı" adlanan bu yanaşmada pozulmuş aortal qapaq xəstənin öz ürəyinin pərdəsindən hazırlanmış qapaq tayları ilə əvəz olunur. ürəyin pərdəsi, yəni, autoloq perikard xüsusi metodla hazırlanır".

Uzunmüddətli dayanıqlılıq üçün bu hazırlama mərhələsinin xüsusi əhəmiyyət kəsb etdiyini deyən professor əməliyyatdan sonrakı exokardioqrafik yoxlamalarda bu qapağın normal qapaqdan ayırd edilməsinin mümkün olmadığını bildirib.

"Yapon alimi tərəfindən təklif edilən ölçü sistemi və alətlərlə, kritik ölçmə mərhələsindən sonra qapaq tayları əvvəlcədən hazırlanmış autoloq perikard taylarla əvəz olunur. Beləliklə, heç bir süni və sintetik materialdan istifadə etmədən aortal qapaq rekonstruksiya edilir. Ona görə də əməliyyatdan sonrakı exokardioqrafik yoxlamalarda bu qapağı normal qapaqdan ayırd etmək çox çətindir", - deyə professor diqqətə çatdırıb.

Ürək qapaqlarının bu cür metodla dəyişdirilməsinin pasiyentlər üçün həm tibbi, həm də maliyyə baxımından çox sərfəli olduğunu bildirən K.Musayev bu əməliyyatın həm yuxarı, həm də aşağı yaş qrupunu əhatə edən xəstələrdə həyata keçirilməsinin vacib olduğunu deyib. O, həmçinin bildirib: "Normal fiziologiyaya çox yaxın olduğundan, eləcə də heç bir süni materialdan istifadə olunmadığından əməliyyatdan sonra qandurulducu dərmanlara ehtiyac olmur. Hemodinamik performansı mükəmməldir. Nəticələri digər mexaniki və bioloji protezlərə görə daha yaxşıdır. Ozakinin öz nəticələrinə baxsaq, 10 il ərzində təkrar müdaxiləsiz yaşam göstəricisi 95,8



faizə bərabərdir. Maddi baxımdan da bu metod sərfəlidir, çünki kifayət qədər bahalı olan protez qapaqlardan istifadə edilmir. Bu metodun istifadəsi yaşlı xəstələrdə ilk seçim olmalıdır. Uşaqlarda istifadəsi isə daha maraqlıdır. Protez qapaqlardan istifadə olunması böyüdükcə, uşaqlarda kifayət qədər ciddi problemlər yaradır. Bu problemlərin qarşısını "Ozaki əməliyyatı" ilə almaq mümkündür. Eyni zamanda, qandurulducu dərman istifadə edə bilməyən və ya etmək istəməyən xəstələrdə, həmçinin əməliyyatdan sonra hamilə olmaq istəyən gənc qadın pasiyentlərdə də istifadəsi məqsədəuyğundur".

Dünyada çox az sayda mərkəzdə və çox az sayda cərrah tərəfindən tətbiq olunan bu əməliyyatın ölkəmizdə həyata keçirilməsini Azərbaycan səhiyyəsinin növbəti uğuru kimi dəyərləndirən Kamran Musayev daim dünya ürək cərrahiyyəsində baş verən yenilikləri təqib və tətbiq etdiklərini qeyd edib.

"Professor Ozakinin özünün təşkil etdiyi kursda iştirak etdim. Yaxın dostluq münasibətlərimiz yarandı. Bu gün ölkəmizdə uğurla həyata keçirdiyimiz bu əməliyyatın baş tutmasında ABŞ-ın Kaliforniya ştatının San-Dieqo şəhərində iştirak etdiyim praktiki kursun da çox faydası oldu. Mütəmadi olaraq professor Ozaki ilə məsləhətləşir, fikir mübadiləsi aparırıq. Dünya ürək cərrahiyyəsinin aparıcı mütəxəssisləri ilə qarşılıqlı əməkdaşlıq ölkəmizdə ürək cərrahiyyəsinin inkişafında mühüm rol oynayır", - deyə mütəxəssis qeyd edib.

**AZƏRTAC**

# *Tehranda nəşr edilən "Xudafərin" jurnalının xüsusi buraxılışı*

**İranın paytaxtı Tehranda Azərbaycan dilində nəşr olunan "Xudafərin" jurnalının 168-ci xüsusi buraxılışı "Respublika" qəzetinin baş redaktoru, Özbəkistandakı "Turan" Elmlər Akademiyasının akademiki, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, professor Teymur Əhmədovun həyat və yaradıcılığına həsr olunub.**




AZƏRTAC xəbər verir ki, təsisçisi və baş redaktoru Hüseyn Şərqidərəcək olan jurnal hər sayında Azərbaycan ziyalılarına da geniş yer ayırır. Jurnal "Teymur Əhmədov fenomeni" sərlövhəli məqalə ilə açılır. Məqalədə deyilir ki, Teymur Əhmədov ömrünün 50 ilini Azərbaycan elminə və mətbuatına sərf edərək bütün fəaliyyəti dövrü ərzində milli köklərimizə sadiq qalıb. Teymur Əhmədov imzası geniş ədəbi ictimaiyyətin yaxşı tanıdığı mötəbər tədqiqatçı alimlərdən biridir.

Akademiklər Cəmil Quliyev, Budaq Budaqov, Yaşar Qarayev, yazıçı Qılman İlkin, şair Nəriman Həsənzadə və başqalarının vaxtilə T.Əhmədov haqqında yazdıqları oçerklər də jurnala daxil edilib. Jurnalın digər bölməsində isə elm və mədəniyyət xadimlərinin - Azərbaycanın böyük yazıçısı Mirzə İbrahimovun, Mirvarid Dilbazinin, Kamal Talıbzadənin, İsa Həbibbəylinin, Zəlimxan Yaqubun, Əli Vəkilin, Nizami Cəfərovun və başqalarının Teymur Əhmədov haqqında fikirləri dərc olunub. Həmçinin jurnalda professor Teymur Əhmədovun "Mirzə Fətəli Axundzadənin ədəbi prosesə təsiri" və "Əndəlib Qaracadağı Nəbati" adlı məqalələrinə də yer verilib. Həmçinin publisist Həqiqət Kərimovanın "İki əsrin salnaməçisi" və "Nəriman Nərimanovun yorulmaz tədqiqatçısı" sərlövhəli məqalələri də jurnalın bu nömrəsinə daxil edilib.

Dərgidə qeyd edilir ki, T.Əhmədovun məşğul olduğu sahələrdən biri də ədəbiyyatşünaslıqdır. Onun yazdığı və tərtib etdiyi əsərlər ədəbiyyatımızın tarixində çox əhəmiyyətlidir. Nəriman Nərimanovun ədəbi, elmi, ideoloji-siyasi fikri Teymur Əhmədovun tədqiqatları nəticəsində həqiqi dəyərini alıb. Bu barədə jurnalın oxucularına ətraflı məlumat verilir.

**AZƏRTAC**

# "DiplomacyCommerce" nəşrinin "İnFocus" jurnalının növbəti nömrəsi tamamilə Azərbaycana həsr olunub

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə ölkəmizin Xorvatiyadakı səfirliyi tərəfindən Azərbaycanın müstəqillik tarixinə, mədəniyyətinə və ölkənin təbliğinə həsr olunan tədbirlər davam edir. Bu tədbirlər çərçivəsində Xorvatiyanın siyasi və biznes dairələri arasında böyük oxucu kütləsinə malik, aylıq əsasda ingilis dilində dərc edilən "DiplomacyCommerce" nəşrinin "İnFocus" adlı jurnalının növbəti nömrəsi tamamilə Azərbaycana həsr olunub.**

AZƏRTAC xəbər verir ki, jurnalın sözügedən buraxılışında Azərbaycan Prezidenti İlham Əliyevin cari il sentyabrın 5-6-da Xorvatiyaya rəsmi səfəri və Azərbaycan-Xorvatiya münasibətlərinə dair məlumatlar yer alıb.

Jurnalda yer alan "Tarixin şanlı səhifəsi" adlı yazıda müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətindən, müstəqil dövlətçiliyimizin əsaslarının yaradılmasından, ölkəmizdə müasir dövrə xas dövlət təsisatlarının formalaşdırılması ənənələrindən, eyni zamanda, xalqımızın müstəqilliyini yenidən bərpa etməsindən sonra ümummilli lider Heydər Əliyevin onun qorunub saxlanılması və gücləndirilməsi istiqamətindəki xidmətlərindən ətraflı bəhs olunur.

Nəşrdə Azərbaycanın Xorvatiyada səfiri Fəxrəddin Qurbanovun, Xorvatiyanın sabiq Prezidenti, Xorvatiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Stepan Mesiçin və "SOCAR" Balkanın rəh-




bəri Murad Heydərovun məqalələri dərc olunub.

Ölkəmizin iqtisadi potensialını təbliğ edilməsi məqsədilə Azərbaycan ilə Xorvatiya arasında iqtisadi əlaqələrə dair məqalələr yer alıb.

Jurnalda Bakı şəhərinin "Ekspo 2025" sərgisinə ev sahibliyi etmək üçün namizədliyi, həmçinin beynəlxalq elmi və təhsil dairələrində yüksək nüfuza malik ADA Universiteti barədə məlumat verilib.

Jurnalda Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətindən bəhs edən "İşğal altında olan mübarək torpaq" sərlövhəli məqalə də dərc edilib. Burada ermənilərin törədikləri vəhşiliklərdən və vandalizmdən, Azərbaycanın torpaqlarının 20 faizinin Ermənistanın işğalı altında olmasından, bu təcavüz nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş bir milyondan çox qaçqın və məcburi köçkündən bəhs olunur.

Nəşrdə Azərbaycanda turizmin sürətli inkişafı, bu istiqamətdə həyata keçirilən layihələr barədə məqalə və ölkəmizin mədəniyyətini, tarixini təbliğ edən fotoşəkillər də yer alıb.

**AZƏRTAC**

# Azərbaycan Ədliyyəsinin 100 illiyinə həsr olunmuş təntənəli tədbir

**Şirvan Apelyasiya Məhkəməsinin təşkilatçılığı ilə Şirvan şəhərində 22 Noyabr - Ədliyyə işçilərinin peşə bayramı günü və Azərbaycan Ədliyyəsinin yaranmasının 100 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilmişdir.**



Tədbirdə iştirak edən birinci və apelyasiya instansiya məhkəmələrinin hakimləri və əməkdaşları, ədliyyə orqanlarının işçiləri, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı və hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri müstəqil dövlətimizin banisi, ümummilli lider Heydər Əliyevin xatirəsini anmış, abidəsi önünə gül dəstələri qoymuşlar.

Şirvan Şəhər Gənclər Evinin akt zalında keçirilən təntənəli tədbiri giriş sözü ilə açan Şirvan Apelyasiya Məhkəməsinin sədri Rəşadət Ağayev 100 illiyini qeyd edən Azərbaycan ədliyyəsinin keşmişini və bu gününü diqqətə çatdıraraq ulu öndər Heydər Əliyevin ədliyyə və məhkəmə orqanlarının inkişafında müstəsna xidmətlərindən danışmış, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən və ümummilli liderin hakimiyyətə gəlməsindən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsində qurulması üçün mühüm tədbirlər görüldüyünü qeyd etmişdir. Daha sonra sədr Rəşadət Ağayev bu sahəyə daim diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması, elektron məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində ölkədə həyata keçirilən kompleks tədbirlər barədə ətraflı məlumat verərək bildirmişdir ki, məhkəmə fəaliyyəti təkmilləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır. Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Zaqatala Rayon Məhkəməsi üçün ən son texnologiyalarla təchiz olunmuş yeni müasir binanın istifadəyə verilməsi bu sahədə fəaliyyətin yüksək səviyyədə təşkilinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə verəcəkdir.

Həmçinin, sədr ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlərdən, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsindən, hakimlərin Avropada nümunə kimi göstərilən şəffaf seçimindən, "Elektron məhkəmə" informasiya sisteminin və yeni məhkəmə infrastrukturunun yaradılmasından bəhs edib, məhkəmələrin üzərinə düşən mühüm vəzifələri diqqətə çatdıraraq insan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyətini, vətəndaşlara qayğı göstərilməsini, vətəndaş məmnunluğunun təmin edilməsini diqqətə çatdırıb.

Sonda Şirvan Apelyasiya Məhkəməsinin sədri Rəşadət Ağayev ədliyyə işçilərinin peşə bayramı və eyni zamanda, Azərbaycan ədliyyəsinin təsis edilməsinin 100-cü ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir.

Daha sonra çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, Şirvan Regional Ədliyyə İdarəsinin rəisi Nizami Hüseynov, Şirvan Apelyasiya Məhkəməsinin hakimləri Zeynal Zeynalov, Fuad Soltanov, Tale Kərimov, Şirvan Şəhər Məhkəməsinin sədri Elçin Qurbanov, Şirvan şəhər prokuroru vəzifəsini icra edən Həsən Hənifəyev və Şirvan şəhəri üzrə İcra və Probasiya şöbəsinin rəisi Yasin Ədilov Azərbaycan ədliyyəsinin 100 illik tarixinə nəzər salaraq, son illər ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla aparıldığını və bu sahədə əldə olunan nailiyyətləri qeyd edərək, Azərbaycan ədliyyəsinin keyfiyyətcə yeni mərhələyə keçid aldığını tədbir iştirakçılarının diqqətinə çatdırmış, ədliyyə işçilərinin peşə bayramı və Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik etmişlər.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə noyabrın 22-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2018-ci il 30 mart və 15 aprel tarixində keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 2 saylı Şərur, 5 saylı Şahbuz-Babək, 7 saylı Ordubad-Culfa, 19 saylı Nərimanov birinci, 24 saylı Nizami birinci, 40 saylı Kəpəz ikinci, 61 saylı Neftçala, 82 saylı Ağcabədi və 122 saylı Xankəndi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Beynəlxalq təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələri iclasda iştirak edib.

**AZƏRTAC**

TƏKRAR

"Bakı Metropoliteni" QSC Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin satın alınması üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin satın alınması.

İştirak haqqı - Lot-1 - 200 manat
Hesabın adı: BAKI METROPOLİTENİ QSC
Hesab nömrəsi (İBAN):
AZ98AZRT38050019440010268002 AZN
VÖEN 1402871431
Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı:
AZ02NABZ01350100000000022944
SWİFT BİK: AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 dekabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 21 dekabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 24 dekabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

# Terrorçuluğu maliyyələşdirən beynəlxalq şəbəkənin üzvləri DTX tərəfindən ifşa edilib

**Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) terrorçuluğa qarşı mübarizə istiqamətində davam edən kompleks araşdırmalar zamanı Birləşmiş Millətlər Təşkilatı tərəfindən terror təşkilatı kimi tanınmış dini ekstremist cinayətkar birliyin tərkibində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə iştirak edərək terror aktları törədən şəxslərin gizli maliyyələşdirilməsi təsbit edilib.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci (terrorçuluğu maliyyələşdirmə), 218.2-ci (cinayətkar birlikdə iştirak etmə), 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə iştirak etmə) maddələri ilə başlanılmış cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri aparılır.

Müəyyən edilib ki, Azərbaycan Respublikasının vətəndaşları Ağayev İlqar Ərşad oğlu, İbrahimov Sahil Fəhrad oğlu, Məmmədov Namiq Natiq oğlu və digərləri 2017-ci ilin oktyabrından etibarən Suriya ərazisində silahlı münaqişələr aparan terror təşkilatı üzvlərinin və onların cinayətkar fəaliyyətlərinin təmin edilməsi məqsədilə ayrı-ayrı ölkələrdəki terror təşkilatının üzvləri tərəfindən göndərilən pul vəsaitlərinin, habelə həmin silahlı münaqişələrdə iştirak edənlərin yaxınları ilə əlaqəyə girib aldıqları pul vəsaitlərinin müntəzəm olaraq, ümumilikdə 500 min ABŞ dollarından çox pulun müxtəlif yollarla təşkilatın Suriya ərazisində fəaliyyət göstərən üzvlərinə göndərilməsini və çatdırılmasını təmin ediblər.

Həmin şəxslər cinayət məsuliyyətinə cəlb edilərək məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam edir.

**AZƏRTAC**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.**

DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlərdə 4 İran İslam Respublikası vətəndaşının saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınmışdır.

Belə ki, 2018-ci il noyabrın 21-də "Tehran-Bakı" aviareysi ilə ölkəmizə uçub gələn İran İslam Respublikası vətəndaşları 1969-cu il təvəllüdlü Abdikord Əli Qulamrıza, 1978-ci il təvəllüdlü Ebrahimniaomrani Arzu Qulaməli, 2015-ci il təvəllüdlü Abdikord Afşin Əli oğlu və 2001-ci il təvəllüdlü Abdikord Afaq Əlinin sərhəd nəzarətinə təqdim etdikləri İtaliya pasportları şübhə doğurmuş, dərinləşdirilmiş laborator müayinə nəticəsində saxta olmaları müəyyən edilmişdir.

Araşdırma zamanı saxlanılmış şəxslərin üzərində onlara məxsus İran İslam Respublikası pasportları aşkar olunmuş, həmin pasportlara əsasən onların 17.11.2018-ci il tarixdə "Tehran-İstanbul" aviareysi ilə uçmaları və bir gündən sonra geri qayıtmaları müəyyən olunmuşdur. Saxta İtaliya pasportlarını da Türkiyədən almaları ehtimal edilir.

Müvafiq araşdırmalardan sonra saxlanılmış şəxslər gəldikləri istiqamətdə ölkə ərazisindən deportasiya olunmuşlar.

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

# AÇIQ TENDER ELAN EDİR

Bakı - Böyük Kəsik - Bakı layihəsində dəmir yolunun rabitə sisteminin qurulması işlərinin satın alınması ilə əlaqədar tenderdə iştirak etmək üçün müraciət (imzalanmış və möhürlənmiş) və 200 (iki yüz) manat (ƏDV daxil) məbləğində iştirak haqqını "Azərbaycan Dəmir Yolları" QSC-nin bank hesabına ödədikdən sonra satınalma predmeti üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən iş vaxtı saat 09:00-dan 18:00-a kimi ala bilərlər.

*Hesab nömrələri:*
*AZ57İBAZ38050019449345061205 (AZN);*
*AZ47İBAZ38150018409345061205 (USD);*
*AZ27İBAZ38150019789345061205 (EUR)*
*AZ64İBAZ38150018109345061205 (RUR).*
*VÖEN: 9900007721*
*Bank: Azərbaycan Beynəlxalq Bankı ASC "Nəqliyyat" filialı*
*Kodu: 805711*
*VÖEN: 9900001881*
*Müxbir hesab:*
*AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. Code: İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əsas şərtlər toplusunu aldıqdan sonra aşağıda qeyd olunan ilkin sənədlər 17 dekabr 2018-ci il saat 18:00-dək elanda göstərilmiş ünvana təqdim edilməlidir:

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair ödəniş vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında arayış;*
*-son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-mənşə və uyğunluq sertifikatları;*
*-və tələb olunacaq digər sənədlər.*

*Tender təklifi və təklifin təminatının təqdim olunmasına dair tələblər:*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifinin məbləğinin 1 %-i həcmində bank təminatı (bank təminatı təklifin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır).*

Təklif və təklifin təminatı möhürlənmiş, ikiqat zərfdə, 2 (iki) nüsxədə (əsli və surəti) 21 dekabr 2018-ci il saat 18:00-a kimi elanda göstərilmiş ünvana təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Satınalan təşkilatın ünvanı: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva, 230**

**Əlaqələndirici şəxs: Nilufər İsmayılova, Satınalma şöbəsi mütəxəssisi**

**Telefon nömrəsi: +994 12 499-66-17; e-mail: nil.ismayilova@ady.az**

Tender təklifləri 24 dekabr 2018-ci il tarixdə, saat 11:00-da elanda göstərilmiş ünvanda açılacaqdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, müvafiq təcrübə, maliyyə vəziyyəti və s.

Mallar 90 (doxsan) gün müddətində göndərilməlidir.

Tender "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti üzrə satınalmaların təşkili və idarə olunması Qaydaları"na uyğun keçirilir.

Təkliflərin açılışında iştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Satınalma Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tələbatına uyğun dəftərxana, təsərrüfat ləvazimatlarının satın alınması üzrə 12 oktyabr 2018-ci il tarixdə keçirilmiş kotirovka sorğusunun nəticələrinə əsasən "GUR" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin inzibati ərazisindən çirkab suyun daşınması işlərinin satın alınması üzrə 12 oktyabr 2018-ci il tarixdə keçirilmiş kotirovka sorğusunun nəticələrinə əsasən "ECODREAM SUPPLİER" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**Tender Komissiyası.**

"İflas prosesində olan BOKT "Vijn Fond AzərKredit" MMC-yə məxsus 20 ədəd işlənmiş minik nəqliyyat vasitələrinin topdansatışı (hamısı birlikdə) həyata keçiriləcəkdir. Satışa çıxarılacaq minik nəqliyyat vasitələrinin siyahısı, eləcə də Satışın keçirilməsi qaydası və satışda iştirak üçün Ərizə forması aşağıdakı linkdə əldə edilə bilər: https://www.azercredit.az/az/sale

Satışda iştirak etmək istəyən şəxslər Ərizə formasını dolduraraq 29 noyabr 2018-ci il tarixinədək cəmiyyətin Bakı şəhəri, Nəsimi rayonu, S.Rəhimov/S.Vurğun küçələrinin kəsişməsi, World Business Center, 3-cü mərtəbədə yerləşən ofisinə təqdim edə və ya trustee@azercredit.az e-poçt ünvanına göndərə bilərlər.

**Satışın keçiriləcəyi yer:** Bakı şəhəri, Nəsimi rayonu, S.Rəhimov/S.Vurğun küçələrinin kəsişməsi, World Business Center, 3-cü mərtəbə;

Satışın keçiriləcəyi tarix: 05 dekabr 2018-ci il

**Əmlak İnzibatçısı.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbəə mallarının satın alınması üzrə 12 oktyabr 2018-ci il tarixdə keçirilmiş kotirovka sorğusunun nəticələrinə əsasən "ATİLLA CO" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tələbatına uyğun maşın və avadanlıqların satın alınması üzrə 12 oktyabr 2018-ci il tarixdə keçirilmiş kotirovka sorğusunun nəticələrinə əsasən "GLOBAL SECURİTY SYSTEMS" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**Tender Komissiyası.**

## Azərbaycan Dövlət Aqrar Universiteti kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün

# MÜSABİQƏ ELAN EDİR

| | |
|---|---|
| Heyvandarlıq və balıq məhsulları istehsalının texnologiyası | dosent, 1 yer |
| İctimai elmlər və multikulturalizm | baş müəllim, 1 yer |
| Menecment və aqrar marketinq | baş müəllim, 2 yer |
| Dillər | baş müəllim, 1 yer<br>müəllim, 1 yer |
| Meliorasiya və hidrotexniki qurğular | assistent, 1 yer |

Mövcud Əsasnamənin tələblərinə uyğun sənədlərini elan qəzetdə dərc olunduğu gündən başlayaraq 30 gün ərzində rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etmək lazımdır:

**Gəncə şəhəri, Atatürk prospekti 450, ADAU, tel:256-00-56, 256-89-57.**

**REKTORLUQ.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 21 noyabr 2018-ci il tarixli № 260 (6293) saylı buraxılışında, "Bakı Metropoliteni" QSC-nin "Blok Post və Bakmil stansiyasi üçün nəzərdə tutulan mebel avadanlıqlarının" satınalınmasına dair açıq tender haqqında elanında dərc olunmuş tender predmeti "Blok Post və Bakmil stansiyası üçün interyer avadanlığı və aksesuarlarının satınalınması" kimi oxunmalıdır.

**"BAKI METROPOLİTENİ" QSC TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

Biləsuvar Rayon İcra Hakimiyyəti Biləsuvar şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə 48 mənzilli yaşayış binasının tikintisi işlərinin satınalınması barədə dərc olunmuş tender elanında zərflər 11 dekabr 2018-ci il saat 11:00-da açılacaq. Tender təklif və bank zəmanəti 10 dekabr 2018-ci il saat 17:00-a kimi qəbul olunur. Digər sənədlər isə 29 noyabr 2018-ci il saat 17:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## Ağdaş RİHB-nin Ş.İ.Ə.D. üzrə nümayəndəliyi Ağdaş şəhər 4 saylı uşaq bağçasının dam örtüyünün təmiri işlərinə kotirovka elan edir.

Zərflərin açılış tarixi: 29 noyabr 2018-ci il saat 11:00-da olacaqdır.

**Ünvan:** *Ağdaş, Heydər Xiyabanı 1.*

**Tender Komissiyası.**

## AZƏRBAYCAN DÖVLƏT NEFT və SƏNAYE UNİVERSİTETİ 2019-cu ildə "Mühafizə xərcləri" maddəsi ilə əlaqədar

# AÇIQ TENDER ELAN EDİR

Tender 1 LOT "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 3 (üç) tədris binasında təmin ediləcək mühafizə xidməti.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmiş əsas şərtlər toplusunu (Nəsimi rayonu Azadlıq pr. 20, əlaqələndirici şəxs: K.Quliyev, Telefon: 012-598-45-05) tender komisiyassından ala bilərlər.

**İştirak haqqı: 200 manat**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*VÖEN: 1400196861*
*Bakı ş. Az 1010 Azadlıq pr. 20*
*Bank rekvizitləri:*
*Kapital Bank ASC 28 may*
*Kod 200123 VÖEN 9900003611*
*M/H AZ37NABZ01350100000000001944*
*H/hesab AZ76AİİB38060029441210456112*
*SWİFT kod. AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışların əslləri və tarixləri tender elanından sonra olmalıdır);*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər (Lisenziya, Şəxsiyyət vəsiqəsi və s.).*

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcumə olunmalıdır)

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 25 dekabr 2018-ci il saat 17:00-a qədər, təklif və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 08 yanvar 2019-cu il saat 17:00-a qədər, Nəsimi rayonu Azadlıq pr. 20 yerləşən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifi 09 yanvar 2019-cu il tarixdə, saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

# AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2011-ci il tarixli 149s №-li Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmiş və "Dövlət Proqramı"na edilmiş əlavələrə əsasən Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması məqsədi ilə qəsəbələrin, çoxmərtəbəli binaların, fərdi yaşayış evlərinin layihələndirilməsi və onların tikintisi ilə bağlı işlərin həyata keçirilməsi MKSİF-ə həvalə olunmuşdur.

**Lot 1.** "Göyçay rayonu ərazisində məcburi köçkün ailələri üçün zəruri texniki infrastrukturu olan 80 mənzilli yaşayış binasının tikintisi"

**İştirak haqqı: 200 (iki yüz) manat**

MKSİF yuxarıda göstərilən tikinti işi üzrə iştirak hüququ olan iddiaçıları möhürlənmiş zərflərdə tender təklifləri təqdim etməyə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər yuxarıda göstərilən məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 57D, (MKSİF) ünvanından, tel.: (+99421) 4318703, 4318769) ala bilərlər.

*Təşkilat: "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu"*
*VÖEN-i: 1400305341*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN (bank): 1401555071*
*Hesab nömrəsi: AZ29CTRE00000000000005728225*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*Kod: 210005*
*S.W.İ.F.T. : CTRE AZ 22*
*Təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 2%-i həcmində bank qarantiyası (tender təklifinin qarantiyasının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olması müddətindən 30 (otuz) bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*- tender iştirakçılarının (iddiaçıların) son 3 (üç) ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*
*-iddiaçının müvafiq tikinti işlərinin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*
*- iddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*
*- iddiaçının ixtisas göstəriciləri haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyası istisna olmaqla) 20 dekabr 2018-ci il saat 18.00-a qədər, tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyasını isə möhürlənmiş ikiqat zərfdə 7 yanvar 2019-cu il saat 18.00-a qədər Bakı şəhəri, Tbilisi prospekti 57D (MKSİF) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 8 yanvar 2019-cu il tarixdə, saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi Proqram təminatının alınması məqsədilə

# KOTİROVKA SORĞUSU ELAN EDİR

Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər müvafiq sənədlərini təqdim etməlidirlər. Təqdim edilmiş zərflərin açılışı 30 noyabr 2018-ci il tarixində saat 10:00-da inzibati binada keçiriləcək.

**Əlaqələndirici şəxs:** *Böyükağa İbrahimov*

**Tel.:** *(012) 538-58-84*

**Ünvan:** *Bakı şəhəri, Yasamal rayonu, H.Cavid prospekti, 111*

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Azərbaycan Beynəlxalq Universiteti tərəfindən Qurbanov Xanmurad Kazım oğluna Avtomobil nəqliyyatı fakültəsini bitirməsi barədə verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Ağaquliyev Nizam Rüfət oğluna verilmiş 04/1360 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Bəşirli Qardaşxan Sakit oğluna verilmiş 04/1385 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 20 dekabr 1997-ci il tarixli 12 nömrəli qərarı ilə Boladi kənd sakini Zəkiyev Babakişi Dadaş oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 652 A; KOD 80200028) itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayon aqrar islahat komissiyasının 31 avqust 1998-ci il tarixli 14/2 nömrəli qərarı ilə Kürəkçi kənd sakini Əkbərov Nərçə Rəşid oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 113; KOD 80414018) itdiyi üçün etibarsız sayılır.

## 11 saylı ərazi Maliyyə Hesablaşma Mərkəzi

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**Lot-1.** Ucar, Göyçay, Kürdəmir rayonları üzrə məktəblər üçün odun yanacağının alınması.

**Lot-2.** Zərdab rayonu üzrə məktəblər üçün odun yanacağının alınması.

İşlərin yerinə yetirilməsi müddəti ilin axırına qədərdir. Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ucar şəhəri, Heydər Əliyev prospekti 17-dən ala bilərlər.

**Əlaqə telefonu: 020213-02-17.**

**Əlaqələndirici şəxs: Gəray Zakirov**

**Hər lot üzrə 50 (əlli) manat**

*VÖEN: 7400503021*
*Hesab N-si:*
*AZ25AİİB36010019447700201177*
*Bank: Kapital Bank*
*Kod: 200770*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*SWİFT: AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-iş qrafiki;*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat. Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 28 dekabr 2018-ci il saat 17:00-a qədər, iş qrafiki tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 10 yanvar 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 11 yanvar 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi 2019-cu il üçün tələb olunan mühafizə xərcləri üçün

# AÇIQ TENDER ELAN EDİR

**Tender bir LOT üzrə aparılır:**

**LOT 1.** Mühafizə xərcləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqının göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15 ünvanından ala bilərlər.

**İştirak haqqı:**

**LOT 1 - 150 manat**

*Təşkilat: Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi*
*Hesab: AZ66CTRE00000000000004688301*
*VOEN: 1700252051*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kod: 210005*
*VOEN: 1401555071*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944*
*SWİF: CTREAZ22*
*Büdcə səviyyəsinin kodu: Fond 7*
*Büdcə təsnifatının kodu: 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir il ərzində fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçının analoji işlər üzrə təcrübəsi və potensial imkanları barədə məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 14 dekabr 2018-ci il saat 16:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 dekabr 2018-ci il saat 16:00-a qədər Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə (ünvan: Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 25 dekabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Əliyev Sirac Ağabala oğlu**

**Telefonlar: 012-569-09-45, 012-569-09-75**

**Ünvan: Az 1114, Bakı şəhəri, Cavadxan küçəsi, məhəllə 32/15.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Texniki Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri Akif Əli oğlu Cahangirov sabiq ədliyyə naziri**

**NƏRİMAN YUSİFOVUN**

**vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması kafedrasının kollektivi kafedranın sabiq dosenti, texnika üzrə fəlsəfə doktoru**

**TOFİQ ABDULLAYEVİN**

**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
22.11.2018